DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 02 (352) / FEVRAL 2021-Cİ İL

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA XOCALI SOYQIRIMI ABİDƏSİNİ ZİYARƏT EDİBLƏR



XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 29-cu ildönümü ilə əlaqədar fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva faciə qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.

Birinci xanım Mehriban Əliyeva abidənin önünə gül dəstəsi qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

* * *

Xocalı soyqırımından 29 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərini yerlə-yeksan etdi. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca dünyasını dəyişdi. 1275 dinc sakin əsir götürüldü, 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirdi.

Xocalı faciəsi təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı törətdiyi soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsidir. Azərbaycan dövləti ötən illər ərzində erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən, Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün ardıcıl fəaliyyət göstərib. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. İndiyə qədər 10-dan çox ölkə və İslam Əməkdaşlıq Təşkilatı Xocalı faciəsini soyqırımı kimi tanıyıb.

Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirdi, qəhrəman övladlarımızı Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etdi. İllər keçdi. 2020-ci ildə baş verən Vətən müharibəsində müstəqilliyin övladları 30 il işğal altında qalan torpaqlarımızı azad etməklə yeni reallıq yaratdı, "dəmir yumruq" qalib gəldi. 44 günlük müharibədə misilsiz igidlik nümunələri göstərən qəhrəman ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Xocalı faciəsi qurbanlarının da qisasını aldı, şəhidlərimizin qanı yerdə qalmadı. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, Vətən bütövləşdi. Bununla da xalq öz rəhbərinin ətrafında yumruq kimi birləşərək tarixi hədəflərinə qovuşdu.

Mübariz Qurbanlı: "Xudavəng birmənalı alban kilsəsidir, çünki Kəlbəcərdə heç vaxt ermənilər yaşamayıb"



Səh. 4

Milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu



Səh. 5

Alban-udi xristian dini icmasının üzvləri Laçında "Ağoğlan" monastırını ziyarət ediblər



Səh. 7

BÖLGƏLƏRDƏ XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİ YAD EDİLİB




Səh. 11

# BİZ YENİ REALLIQLAR YARATMIŞIQ, ERMƏNİSTAN VƏ BÜTÜN BAŞQA ÖLKƏLƏR BU REALLIQLA HESABLAŞMALIDIR



Bu gün Ermənistan elə bir ağır durumdadır ki, orada gedən proseslər ölkənin dövlətçilik əsaslarını böyük dərəcədə sarsıdır. Bunun günahkarları Ermənistanın əvvəlki və indiki rəhbərləridir.

Bu fikirləri Prezident İlham Əliyev fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında son günlər Ermənistanda baş verən hadisələrə münasibət bildirərkən səsləndirib.

Dövlətimizin başçısı deyib: "İyirmi il ərzində Koçaryan-Sarkisyan xuntası Ermənistanı faktiki olaraq uçuruma aparırdı və böhranlı vəziyyətə gətirib çıxardı. Ölkə demək olar ki, bütövlükdə müstəqillik əlamətlərini itirmişdi, daha çox müstəmləkəyə bənzəyirdi. Bunun əsas səbəbi işğalçılıq siyasətidir. Çünki onlar torpaqlarımızı nə qədər çox işğal altında saxlamaq istəyirdilərsə, o qədər də asılı vəziyyətə düşürdülər. Biz Ermənistanı ardıcıl olaraq bütün beynəlxalq, regional layihələrdən təcrid etmişdik. Ermənistanı iqtisadi cəhətdən sarsıtmaq, çökdürmək, təcrid etmək bizim siyasətimiz idi. Mən bunu heç vaxt gizlətmirdim və açıq şəkildə dəfələrlə deyirdim ki, biz bu siyasəti o vaxta qədər aparacağıq ki, Ermənistan öz silahlı qüvvələrini bizim torpaqlarımızdan çıxarsın. Ondan sonra bölgədə iş birliyi də, əməkdaşlıq da olar bilər və bizim siyasətimizdə dəyişiklik ola bilər. Əfsuslar olsun ki, nə əvvəlki xunta rejimi, nə də 2018-ci ildə hakimiyyətə gəlmiş hökumət bizim bu çağırışlara qulaq asmadı. Əgər vaxtında qulaq assaydılar, bu gün belə rəzil duruma düşməzdilər".

Prezident qeyd edib ki, Ermənistanda indi tam böhran vəziyyəti hökm sürür. "Mən onların daxili vəziyyəti ilə bağlı hər hansı bir şərh vermək istəməzdim. Prinsip etibari ilə biz heç vaxt başqa ölkələrin daxili işlərinə qarışmırıq, xüsusilə indiki bir həssas məqamda. Ancaq müharibənin nəticələri dəyişməz olaraq qalır və qalacaq. Noyabrın 10-da imzalanmış Bəyanat icra edilir və tam icra edilməlidir. O bəyanatın müddəalarının böyük hissəsi artıq icra edilibdir. Ancaq elə məsələlər var ki, onlar indi müzakirə mövzusudur. Ümid edirəm ki, Ermənistanda yaranmış vəziyyətə baxmayaraq, noyabrın 10-da imzalanmış Bəyanat icra ediləcəkdir. Əks təqdirdə Ermənistan daha da ağır duruma düşəcək. Yəni, Ermənistan qarşısında seçim o qədər də böyük deyil. Onlar yeni reallıqlarla barışmalıdırlar, hesablaşmalıdırlar", - deyə Prezident əlavə edib.

Azərbaycanın yeni reallıqlar yaratdığını bildirən Prezident İlham Əliyev vurğulayıb ki, bu reallıqla Ermənistan və eyni zamanda, bütün başqa ölkələr barışmalıdırlar, hesablaşmalıdırlar. Ermənistanın qarşısında indi bir neçə seçim var və onların arasında Ermənistan üçün ən məqbul seçim 10 noyabr Bəyanatının müddəalarını icra etməkdir. Əks təqdirdə onlar üçün daha da böyük problemlər yarana bilər.

# PREZİDENT İLHAM ƏLİYEV ABŞ ETNİK ANLAŞMA FONDUNUN PREZİDENTİ VƏ TƏSİSÇİSİ MARK ŞNAYERİ VİDEOFORMATDA QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayeri videoformatda qəbul edib.

Mark Şnayer ölkəmizdə digər dini və etnik icmaların nümayəndələri ilə yanaşı, yəhudi icmasına yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Müsəlman ölkələri arasında ən böyük yəhudi icmasının Azərbaycanda yaşadığını vurğulayan Mark Şnayer Prezident İlham Əliyevin digər icmalarla yanaşı, yəhudilərə göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirib.

Dövlətimizin başçısı yəhudilərin ölkəmizin dəyərli vətəndaşları olduqlarını qeyd edib, digər dini və etnik icmaların nümayəndələri kimi onların da Azərbaycanda əsrlər boyu mehribanlıq, qardaşlıq və dostluq şəraitində yaşadıqlarını bildirib.

Söhbət zamanı mədəniyyətlərarası dialoq sahəsində Azərbaycanla ABŞ əlaqələrinin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



# Dövlət Komitəsinin sədri "Veçerniy List" qəzetinə müsahibə verib



Mübariz Qurbanlı fevralın 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Xorvatiyanın "Veçerniy List" qəzetinin jurnalisti Hasan Haydar Diabın suallarını cavablandırıb.

Dövlət Komitəsinin sədri müsahibəsində Azərbaycandakı dini vəziyyət, ölkəmizdə mövcud olan dinlərin tarixi, dövlət tərəfindən dini sahəyə göstərilən diqqət və qayğı, işğaldan azad olunmuş torpaqlarımızda Ermənistan tərəfindən vandalizm aktlarına məruz qalmış tarixi dini abidələr barədə geniş məlumat verib.

Bildirilib ki, Avropa ilə Asiyanın qovuşuğunda, tarixi İpək Yolu üzərində yerləşən Azərbaycan müsəlmanların, xristianların, yəhudilərin və digər dinlərin əsrlərlə dinc şəraitdə yaşadıqları dünyəvi ölkədir. Azərbaycanda müxtəlif mədəniyyətlərə və dinlərə münasibətdə hörmət və tolerantlıq ənənəsi var. Müxtəlif dini icmalar ölkəmizin inkişafında fəal rol oynayırlar.

Dövlətin rəsmi siyasətində tolerant və multikultural dəyərlərin təşviqinin mühüm yer tutduğunu vurğulayan Komitə sədri qeyd edib ki, bu ənənə Ulu Öndər Heydər Əliyevin siyasətində önəmli yerə sahib olub və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Müxtəlif dini konfessiyalar arasındakı harmoniyaya diqqət çəkən M.Qurbanlı bu birliyin erməni işğalçıları üzərində Azərbaycanın qələbəsi ilə nəticələnən 44 günlük müharibə zamanı özünü daha qabarıq şəkildə büruzə verdiyini xüsusi qeyd edib. Bildirilib ki, Azərbaycanda yaşayan bütün dinlərin nümayəndələri könüllü olaraq Vətən müharibəsində iştirak ediblər.

Eyni zamanda qeyd edilib ki, ermənilər işğal müddətində Azərbaycan türklərinin minilliklər ərzində yaratdığı tarixi və mədəni abidələrə qarşı vandalizm törədərək qədim Alban dövlətinə aid abidələri ciddi saxtakarlıqlara məruz qoyub, qriqoryanlaşdırmağa çalışıb. M.Qurbanlı yüzlərlə dini abidəmizin – məscid, kilsə, ziyarətgah və qəbiristanların dağıdıldığını, məscidlərimizin tövlə halına salındığını söyləyib.

Ətraflı müsahibəyə görə Komitə sədrinə təşəkkürünü bildirən jurnalist işğaldan azad olunan torpaqlarımıza səfər edəcəyini, bu faktları işıqlandıracağını bildirib.

Sonda qonağa DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında nəşr etdirdiyi kitablar təqdim edilib.

# “Xilaskar İlham Əliyev” adlı kitabın videokonfrans formatında təqdimatı keçirilib




Fevralın 22-də Yeni Azərbaycan Partiyasının İcra Katibiyinin təşkilatçılığı ilə Milli Məclisin deputatı, “Azərbaycan” qəzetinin baş redaktoru, Əməkdar jurnalist Bəxtiyar Sadıqovun “Xilaskar İlham Əliyev” kitabının videokonfrans formatında təqdimatı keçirilib.



Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, xalqımızın Vətən müharibəsində Qələbəsinə həsr olunan “Xilaskar İlham Əliyev” kitabının təqdimatının keçirilməsi üçün 22 fevral tarixinin seçilməsi təsadüfi deyil. Çünki ermənilərin Dağlıq Qarabağın Azərbaycandan qopardılması, torpaqlarımızın işğalı ilə bağlı fitnəkarlıqlarına qarşı xalqımızın ayağa qalxması məhz 1988-ci ilin 22 fevralından başlayır.

Mübariz Qurbanlı qeyd edib ki, Milli Məclisin deputatı Bəxtiyar Sadıqovun “Xilaskar İlham Əliyev” kitabı dörd fəsildən ibarətdir və kitabda mühüm istiqamətlər var. Prezident İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması uğrunda diplomatik fəaliyyəti, həyata keçirdiyi ordu quruculuğu, Vətən müharibəsində ordumuzun uğurlu hərbi əməliyyatları, əsgərlərimizin qəhrəmanlıqları, torpaqlarımızın azad olunması kimi tariximizi şərəfləndirən məqamlar burada öz mükəmməl əksini tapıb. Müəllif kitabda torpaqlarımızın azadlığı uğrunda mübarizənin salnaməsini yaradıb ki, bu da həm bu gün, həm də gələcək üçün əhəmiyyətlidir və dəyərlidir.daha sonra Milli Məclisin sədr müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, professor Fəzail İbrahimli, Milli Məclisin deputatı, akademik Nizami Cəfərov, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, YAP Xətai rayon əşkilatının sədri, professor Hüseynbala Mirələmov və digər tədbir iştirakçıları kitabla bağlı fikirlərini söyləyib.

“Xilaskar İlham Əliyev” kitabını həm də dədə-baba yurdu işğaldan azad olunan bir qarabağlı kimi Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq hissi ilə qələmə aldığını söyləyən Bəxtiyar Sadıqov qeyd edib ki, nəşr indiki və gələcək nəsillər üçün zəfər salnaməmizi, yeni tariximizi əks etdirir.

# Mübariz Qurbanlı: Azərbaycanda heç vaxt dini, irqi və etnik ayrı-seçkilik olmayıb

Fevralın 18-də BMT-nin mənzil qərargahında qurumun İqtisadi və Sosial Şurasının (ECOSOC) “Bərabərliyə yeni baxış: Dayanıqlı İnkişaf Məqsədləri üzrə fəaliyyət onilliyi çərçivəsində irqçilik, ksenofobiya və ayrı-seçkiliyin hər kəs üçün aradan qaldırılması” mövzusunda nazirlərin iştirakı ilə virtual formatda görüşü keçirilib.



ECOSOC-un prezidenti Münir Əkrəmin moderatorluğu ilə keçirilən və dünyanın 20-dən çox ölkəsindən nümayəndənin iştirak etdiyi videokonfransda BMT-nin Baş katibi Antoniu Quterreş açılış nitqi ilə çıxış edərək bildirib ki, 2020-ci ilin sentyabrında BMT-nin 75-ci ildönümü münasibətilə dünya liderləri “zorakılıq, insan haqları pozuntuları, korrupsiya, marginalizasiya, hər cür ayrı-seçkilik, yoxsulluq və təcrid, həmçinin savadsızlıq, işsizliyin kök səbəblərini aradan qaldırmağa” dair ümumi razılığa gəliblər. İrqçiliyə qarşı müxtəlif beynəlxalq insan haqları sənədlərində, 2030-cu ilədək davamlı İnkişaf Gündəliyində, 75-ci ildönümü Bəyannaməsində və digər müvafiq sənədlərdə göstərilən tədbirlər bu gün hər zamankından daha aktualdır. Eyni zamanda, Baş katib hər cür ayrı-seçkiliyin, sistem bərabərsizliyinin kök səbəblərinin aradan qaldırılmasının vacibliyinə toxunub.

Videokonfransda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransın mövzusunun əhəmiyyətini vurğulayaraq qeyd edib ki, “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn öhdəliklərin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən 2016-cı ildə yaradılmış Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası fəaliyyət göstərir. Azərbaycanın ümumxalq referendumu ilə qəbul edilmiş Konstitusiyasında dünyəvi dövlət modeli təsbit olunub. Bu gün ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın həyata keçirdiyi dövlət-din münasibətləri modeli dünyəvilik, tolerantlıq və multikultural dəyərlərə söykənir. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir.

Əhalisinin sayında müsəlman çoxluğu olmasına baxmayaraq, müxtəlif azlıqda dini icmaların sülh və dostluq şəraitində birgə yaşadığı dövlət kimi Azərbaycanın dini, irqi və etnik zəmində ayrı-seçkilik, anti-semitizmin heç vaxt qeydə alınmadığı ölkələr sırasında önəmli yer tutduğu diqqətə çatdırılıb. Komitə sədri bildirib ki, daim dinlərarası və mədəniyyətlərarası dialoqu təşviq edən, bu mövzuda keçirilən beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycanda hazırda qeydiyyatdan keçmiş dini icmaların ümumi sayı 963-ə çatıb. Ölkə ərazisində mövcud iki mindən yuxarı məscidlə yanaşı, 14 kilsə, qədim Azərbaycan dövləti Qafqaz Albaniyasına aid tarixi kilsələr, 7 sinaqoq, Zərdüştlük dininə aid Atəşgah məbədi və müxtəlif dinlərə aid ibadət yerləri fəaliyyət göstərir.

Cənubi Qafqaz bölgəsində Ermənistanın həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasətinin, eyni zamanda qonşu dövlətlərə qarşı ərazi iddiası ilə çıxış etməsinin dialoqa və dinc birgəyaşayışa mane olduğu xüsusi qeyd olunub. Çıxış zamanı o da bildirilib ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf 7 rayonunun işğalı zamanı Ermənistan tərəfindən bu ərazilərdə vandalizm aktı törədilib, Azərbaycanın mədəni-dini irsi yerlə-yeksan edilib və ya dəyişdirilib - məscidlər, ziyarətgahlar, kilsələr, qəbiristanlar dağıdılıb və ya heyvan saxlanılan tövlə halına salınıb, həmçinin tarixi Qafqaz Albaniyasına aid abidələrin daxili və xarici görkəmləri dəyişdirilərək qriqoryanlaşdırılıb. Təsadüfi deyildir ki, bir sıra xarici jurnalistlər erməni vandalizminin qurbanı olmuş həmin yaşayış məntəqələrini “kabuslar şəhəri”, “kiçik Xirosima” adlandırıblar. M.Qurbanlı erməni işğalçıları üzərində Azərbaycanın qələbəsi ilə nəticələnən 44 günlük müharibədən sonra işğaldan azad olunmuş torpaqlarımızda Ermənistan tərəfindən vandalizm aktlarına məruz qalmış tarixi dini abidələrin dövlət tərəfindən bərpa edilməsi prosesinin başladığını vurğulayıb.

M.Qurbanlı qeyd edib ki, Ermənistan xristian təəssübkeşliyinə nail olmaq məqsədilə bu müharibəyə din xadimlərini cəlb edərək, münaqişəni dini müstəvidə təqdim etməyə çalışıb. Azərbaycanda müsəlman, xristian, yəhudi və s. dinlərin, eləcə də 30 mindən çox erməni millətinin nümayəndələrinin də sərbəst yaşadığı, Bakının mərkəzində Erməni Apostol Kilsəsinin dövlət tərəfindən qorunduğu hamıya məlumdur.

Çıxışının sonunda Komitə sədri hazırda dinlərin insanlara verəcəyi əsas töhfə olan vəhdət və harmoniyanın təmin edilməsinin, dini liderlər tərəfindən irqi, dini ayrı-seçkilik, ekstremizm və separatizmin tənqidinə yönəlik çağırışların vacibliyini bir daha konfrans iştirakçılarının diqqətinə çatdırıb.

# Mübariz Qurbanlı: "Xudavəng birmənalı alban kilsəsidir, çünki Kəlbəcərdə heç vaxt ermənilər yaşamayıb"



*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının "Report"a müsahibəsi (ixtisarla):*

**- Ölkədəki dini durumu necə dəyərləndirərdiniz, dini durumu tam qənaətbəxş hesab etmək olarmı?**

- Azərbaycanda dini durum sabitdir, ölkədə mövcud olan müxtəlif dinlərə və məzhəblərə mənsub dindarlar arasında hər hansı formada qarşıdurma müşahidə olunmur. Təbii ki, bunun da kökündə xalqımızın tarixin süzgəcindən keçib gələn tolerantlıq ənənələri və dövlətin bu sahədəki uğurlu siyasəti dayanır. Prezidentin birbaşa rəhbərliyi ilə Azərbaycan hökumətinin bu sahədə həyata keçirdiyi tədbirlər və qəbul etdiyi qərarlar öz müsbət nəticəsini verir. Dövlət vətəndaşların əqidə seçiminə hörmətlə yanaşmaqla bərabər, dini ekstremizm, dözümsüzlük ideyalarının təbliğinin qarşısını almağa davam edir. Ancaq bir çox ölkədə olduğu kimi, Azərbaycanda da dindən siyasi məqsədlər üçün istifadə etməyə və ölkədəki dini vəziyyəti gərginləşdirməyə cəhd göstərənlər az da olsa, var. Bu cür neqativ halların qarşısını almaq üçün Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi aidiyyəti dövlət qurumları ilə birgə öz fəaliyyətini davam etdirir və lazım olan bütün zəruri addımlar atılır. Eyni zamanda, pandemiya və karantin şəraitinə baxmayaraq, Dövlət Komitəsi dini etiqad azadlığı prinsiplərinin qorunması, dini icmalar arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, dini dözümsüzlük meyillərinin qarşısının alınması istiqamətində dini maarifləndirmə işini həyata keçirir.

**- Uzun müddətdir pandemiya səbəbindən ibadətgahlarda dini ayinlər dayandırılıb, kütləvi toplaşma qadağan edilib. Bu ərəfədə hər hansı pozuntu qeydə alınıbmı? Nəzarət necə həyata keçirilir?**

- Bu gün təkcə Azərbaycanda deyil, bir çox ölkədə dini ibadət yerlərinin və ziyarətgahların fəaliyyəti məhdudlaşdırılıb, kütləvi ibadətlər və tədbirlər dayandırılıb. Ölkəmizdə virusun qarşısını almaq və vəziyyəti nəzarətdə saxlamaq məqsədilə ibadət ocaqlarının, o cümlədən məscidlərin, kilsələrin və sinaqoqların fəaliyyəti ilə bağlı məhdudiyyət qalmaqdadır. Pandemiyanın ilk dövrlərindən dini konfessiyalar tərəfindən dini icmalara və dindarlara ayinləri evlərində yerinə yetirmələri ilə bağlı tövsiyə və çağırışlar edilib, din xadimlərimiz də bu təşəbbüsü müsbət qarşılayıblar. Çünki burada əsas məqsəd əhalinin sağlamlığı və insan həyatının qorunmasıdır.

Dini ibadət ocaqlarının fəaliyyəti pandemiya səbəbindən müvəqqəti məhdudlaşdırılsa da, bir çox din xadimi öz fəaliyyətini televiziyalar, internet və onlayn informasiya vasitələri üzərindən həyata keçirməyə davam edirlər. Məscidlərdə azan vaxtlı-vaxtında verilir. Ümumi götürdükdə, bu məsələ ilə bağlı pozuntu halları qeydə alınmayıb. Dindarlar karantin tədbirlərinə, o cümlədən dini ibadət və ayinlərə qoyulan məhdudiyyətlərə riayət etməklə qanunun tələblərinə dəstəklərini ifadə edirlər. Mömin insanlar, xüsusilə çətin sınaqlar və böhranlar dövründə hər kəsə nümunə olmalıdırlar. Məsələyə dövlət tərəfindən də nəzarət edilir, monitorinqlər keçirilir və bu sahədə maarifləndirmə işi aparılır. Məsələn, Dövlət Komitəsi tərəfindən mütəmadi olaraq dini icma sədrləri və din xadimlərinin iştirakı ilə videokonfrans formatında tədbirlər keçirilir. Videokonfranslarda koronavirus pandemiyasına qarşı ölkəmizdə görülən qabaqlayıcı tədbirlər və həyata keçirilən işlərə diqqət çəkilir, dəfn mərasimləri istisna olmaqla, yas mərasimlərinin keçirilməsinə müvəqqəti məhdudiyyətlər tətbiq olunduğu vurğulanır. Bununla bağlı istər Nazirlər Kabineti yayında Operativ Qərargahın, istərsə də Qafqaz Müsəlmanları İdarəsinin tapşırıq və tövsiyələrinə əməl edilməsinin vacibliyi din xadimlərinin və dini icma sədrlərinin diqqətinə çatdırılır.

**- Pandemiya dövründə hər hansı radikal qüvvələrin aktivləşməsi müşahidə olunubmu?**

- Təcrübə göstərir ki, ölkəmizdə radikal və ekstremist təmayüllü dini baxışlar əhali tərəfindən dəstəklənmir. Əksinə, ciddi ictimai müqavimətə və qınağa səbəb olur. Amma bu problem xarici amillər hesabına zaman-zaman meydana çıxır. Bunun da qarşısı qətiyyətlə alınır. Faktlara müraciət etsək, hazırda vəziyyəti qənaətbəxş hesab edə bilərik. Amma unutmaq olmaz ki, radikalizm və ekstremizmdən qaynaqlanan hadisələr birdən-birə baş vermir, müəyyən vaxt aparan prosesin nəticəsi kimi ortaya çıxır. Ona görə də, radikalizm və ekstremizmə qarşı mübarizə kompleks yanaşma tələb edir. Burada vacib istiqamət xaricdən qaynaqlanan radikal və ekstremist fikirlərə qarşı ideoloji mübarizə aparılması, bu düşüncənin dini baxımdan əsassızlığı və fəsadları barədə mütəmadi maarifləndirmə işinin görülməsidir. Bu istiqamətdə maarifləndirmə işləri televiziya, media, həmçinin kitab, jurnal, broşür kimi vasitələrlə yanaşı, internetin imkanlarından istifadə olunmaqla sosial şəbəkələrdə də həyata keçirilir.

**- Suriyada və İraqda olan azərbaycanlıların ölkəyə qaytarılması istiqamətində hansı işlər görülür? Ötən il ərzində neçə azərbaycanlı, o cümlədən uşaq ölkəyə qaytarılıb?**

- Biz hər zaman qeyd edirdik ki, Suriyaya, İraqa döyüşməyə gedənlər üç qrupa bölünür: müəyyən maddi şirnikləndirməyə inananlar, macəra axtarışında olanlar və orda baş verənlərin, təəssüf ki, cihad olduğuna inananlar. Birinci qismə aid edilənlər qısa zamanda öz səhvlərini anladılar – müxtəlif əyri yollarla gedib "mənzil başına" çatanda gördülər ki, onlara vəd edilən "cənnət", var-dövlət xülya imiş, sadəcə sadəlövhlük ediblər. İkinci qismə aid edilənlər bir müddət sonra gördülər ki, bu, müharibədir, kompüter oyunu deyil və müharibə meydanı macərapərəstlik yeri deyil, insan həyatı dəyərlidir, onu macəraya qurban vermək olmaz, üstəlik, bu, əgər insanın öz həyatıdırsa. Üçüncü qismə aid olanlar da zaman keçdikcə, o bölgələrdən gələn xəbərləri, insanların hansı məşəqqətlərə məruz qaldıqlarını gördükcə özlərini sübut etmək üçün başqa arena axtarmağın daha məqbul olduğunu anladılar. Onların çox az qismi cihad adı ilə döyüşməyə yollanmışdı ki, onlar da radikal qrupların təsiri altına düşənlər idi.

Dövlət Komitəsi bu mövzuda sənədli filmlər çəkdi, kitablar, qəzet və jurnal nəşr etdi, əməkdaşlarımız, demək olar ki, şəhər-şəhər, qəsəbə-qəsəbə, kənd-kənd gəzərək, xüsusilə, gənclər arasında maarifləndirici işlər apardılar. Eyni zamanda, güc strukturlarımızın yüksək peşəkarlıqla həyata keçirdikləri qabaqlayıcı tədbirlər çox qısa müddətdə nəticəsini verdi. Azərbaycandan digər ölkələrə döyüşməyə gedənlərə mənəvi dəstək verənlər də zərərsizləşdirildi, fəaliyyətlərinin qarşısı tamamilə alındı. Son beş ildə Azərbaycandan o bölgələrə kiminsə döyüşməyə getməsi ilə bağlı fakt, demək olar ki, yoxdur. Çünki artıq Azərbaycanda hamıya bəllidir ki, Suriyada, İraqda gedən müharibə din müharibəsi deyil. Bu, müxtəlif dairələr üçün çəkişmə mərkəzinə çevrilmiş ərazidir. Azərbaycana da bunun aidiyyəti yoxdur. O ki qaldı əvvəllər gedənlərin geri qaytarılmasına, bu məsələ ilə aidiyyəti qurumlar məşğuldurlar, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi isə bununla bağlı öz üzərinə düşən vəzifəni yerinə yetirir.

**- Dövlət Komitəsi tərəfindən "Dini etiqad azadlığı haqqında" mövcud qanuna dəyişiklikləri nəzərdə tutan təkliflər paketi hazırlanmışdı. Bu dəyişikliklər nələrdir?**

- Bilirsiniz ki, qanunlar canlı orqanizm kimidir, zamanın çağırışlarına cavab verməli, dövrün tələblərinə uyğunlaşdırılmalıdır. "Dini etiqad azadlığı haqqında" Qanuna müəyyən dəyişikliklərin edilməsi ilə bağlı təkliflər hazırda müzakirə olunur. Yalnız onu deyə bilərəm ki, dəyişikliklər dövrün tələblərinə görə yaranmış zərurətdən və din sahəsini tənzimləyən qanunvericilik bazasını daha da təkmilləşdirmək məqsədindən irəli gəlir.

**- Ermənilərin Xudavəng monastrını ziyarət etmələri barədə nə deyə bilərsiniz? Bu ziyarət arzusunun kökündə səmimi dindarlıq varmı?**

- Etiqad elə məsələdir ki, burda səmimiyyət ən birinci şərtdir. Əgər inanc səmimi deyilsə, deməli, etiqaddan söhbət gedə bilməz, bu, riyakarlıqdır. Xudavəng monastırı qədim alban məbədidir və bunu sübut edən faktlar var. Tarixdən bəllidir ki, rus çarı I Nikolay 1836-cı ildə Erməni-qriqoryan Kilsəsinin təhriki ilə, qeyri-qanuni olaraq Alban katolikosluğunu ləğv etmiş və yerində erməni katolikosluğunun tabeçiliyinə verilən iki yeparxiya, həmçinin Erməni-qriqoryan Kilsəsinin Tiflis konsistoriyasının tərkibində Gəncə vikariatlığı yaratmışdı. Bu qərar ona görə qeyri-qanuni idi ki, Erməni-qriqoryan Kilsəsi ilə Alban Kilsəsi dini baxımdan tamamilə ayrı istiqamətlərdir. Ən maraqlı məqam isə odur ki, çar Rusiyasının dövründə Dağlıq Qarabağdakı alban kilsələri Erməni-qriqoryan Kilsəsinə verilsə də, ermənilər bu kilsələrdə ibadət etməyiblər. Baxın, çarın fərmanında "verilmə" deyilir və bu, həmin abidələrin Erməni-qriqoryan Kilsəsinə aid olmadığını aydın göstərir. Hətta sovet dövründə də həmin abidələr Azərbaycanın maddi irsi kimi qorunub və orada heç vaxt dini ayin icra olunmayıb. Yuxarıda dediyim səmimiyyət məsələsindən doğan bir sual ortaya çıxır: yaxşı, əgər bunlar erməni dini məbədləridirsə, niyə ermənilər bu kilsələrdə heç vaxt ibadət etməyiblər? Xudavəng birmənalı alban kilsəsidir və onun yerləşdiyi Kəlbəcər rayonunda ermənilərin heç vaxt yaşamaması bunun əyani sübutlarındandır. Nəinki Xudavəng, heç XIX əsrdə zorla Erməni-qriqoryan Kilsəsinin tabeçiliyinə verilən Gəncəsər və Ağoğlan kilsələrində də ermənilər dini ayin keçirməyiblər. Dağlıq Qarabağdakı xristian dini abidələri Erməni-qriqoryan Kilsəsinə aid idisə, nəyə görə ermənilər bu məbədlərlə nə çar Rusiyası, nə də SSRİ dövründə maraqlanmırdılar? Çünki özləri də yaxşı bilirdilər ki, bu məbədlər onların deyil, onlar bu abidələri nə vaxt özlərininki elan etməyə başladılar? Yalnız torpaqlarımızı işğal etdikdən sonra. Son 30 ildə ermənilər Qarabağdakı bir çox alban kilsəsini qriqoryanlaşdırıblar, onun həm daxili, həm də xarici görünüşündə dəyişikliklər ediblər. Təəssüf ki, işğal dövründə qəsbkar düşmən təkcə insanlarımıza deyil, məbədlərimizə qarşı da soyqırımı həyata keçirdi, tarixi saxtalaşdırmağa çalışdı. Soyqırımına təkcə məscidlərimiz, alban abidələrimiz deyil, həm də pravoslav kilsələri məruz qalıbdır. 1894-cü ildə Xocavənd rayonunda rus-pravoslav kilsəsi inşa edilmişdi.

Ermənilər 1992-ci ildə Xocavəndi işğal etdikdən sonra o kilsənin başına nə oyunlar açıblar, kilsə indi nə vəziyyətdədir – hamımız gördük. Hətta öz dininin abidəsini talan edənlər, dağıdanlar hansı səmimiyyətdən danışa bilərlər? Hansı üzlə özünü məsum və məzlum xalq elan edə bilər? Hansı üzlə "biz xristian olduğumuz üçün müsəlman türklər tərəfindən əzilirik" deyib ümumxristian çağırışları edə bilər? Və yeri gəlmişkən, ortada bu qədər faktlar var ikən qoy şanlı Azərbaycan Ordusunun 44 günlük zəfər yürüşündən sonra Qarabağdakı xristian məbədlərinin taleyindən "narahat" olan qurumlar, dövlətlər, şəxslər bu sualı özlərinə versinlər: kimin yanında olmaq lazımdır? Haqqın, yoxsa şərin? Nəinki başqa dinin, hətta öz dininin abidələrinə qarşı da terror edənlərin, yoxsa bütün dinlərin abidələrini qoruyan, bərpa və təmir edənlərin? İşğaldan azad olunmuş ərazilərdəki bütün dini məbədlərimiz – məscidlər, alban kilsələri bərpa olunacaq. Qafqaz Albaniyasının tarixi irsi Azərbaycan tərəfindən hifz olunur. Bu gün Qafqaz Albaniyasına məxsus abidələr dövlət tərəfindən təmir-bərpa edilərək qorunur. Buna nümunə kimi, biz Şəkidəki Kiş məbədini, Heydər Əliyev Fondu tərəfindən 2006-cı ildə Qəbələdə udilərin kompakt şəkildə yaşadığı Nic qəsəbəsində yerləşən Çotari alban-udi kilsəsinin və ötən ilin noyabrında Müqəddəs Məryəm Ana Alban kilsəsinin təmirbərpa edildiyini göstərə bilərik.

Eyni zamanda, Alban Apostol Kilsəsinin varisi olan Alban-udi xristian dini icmasının nümayəndələri üç dəfə Ermənistan işğalından azad olunmuş Kəlbəcər rayonundakı Xudavəng monastır kompleksini və bu günlərdə Laçın rayonu ərazisində yerləşən qədim alban məbədi "Ağoğlan" monastırını ziyarət ediblər. Alban-udi xristian dini icmasına öz tarixi məbədlərini ziyarət etmək üçün bütün şəraitin yaradılması bir daha dövlətin multikulturalizm siyasətinin, milliyyətindən və dinindən asılı olmayaraq bütün vətəndaşların dini etiqad azadlığının yüksək səviyyədə təmin olunmasının bariz göstəricisidir.

# Azərbaycan dünya miqyasında tolerantlıq və dözümlülüyün hökm sürdüyü nümunəvi ölkə kimi tanınmışdır



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı fevralın 4-də ölkəmizdə səfərdə olan ABŞ-ın Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayer ilə görüşüb.

Qonaqları salamlayan Dövlət Komitəsinin sədri bildirib ki, bu gün dinlər və sivilizasiyalararası dialoqun baş tutması üçün əsas şərtə çevrilən tolerantlıq və multikulturalizm Azərbaycan xalqının əsrlər boyu formalaşan, çoxları üçün örnək olan xarakterik xüsusiyyətidir. O vurğulayıb ki, bu dəyərlərin, eləcə də Azərbaycan ilə bağlı həqiqətlərin dünyaya çatdırılmasında yəhudi icmalarının özünəməxsus yeri vardır. "Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək uğrunda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük Vətən müharibəsində yəhudi vətəndaşlarımız da iştirak edərək digər dinlərin nümayəndələri ilə birgə həmrəylik göstəriblər", - deyə M.Qurbanlı qeyd edib.

Öz növbəsində ölkə rəhbərliyi tərəfindən milli və etnik icmalara, o cümlədən Azərbaycanda əsrlərlə yaşamış yəhudi icmalarına xüsusi diqqət və qayğının olduğunu söyləyən M.Şnayer qeyd edib ki, Azərbaycan təkcə müsəlman aləmində deyil, həmçinin dünya miqyasında yüz illər ərzində tolerantlıq və dözümlülüyün hökm sürdüyü nümunəvi ölkə kimi tanınmışdır. Qonaq vurğulayıb ki, Azərbaycan dövlətinin yürütdüyü siyasətin nəticəsidir ki, burada yaşayan yəhudi və digər icmalar Azərbaycan xalqının tam və bərabərhüquqlu üzvüdürlər.

ABŞ-ın NBC kanalında hər həftə ravvin kimi çıxışlar etdiyini deyən Mark Şnayer Azərbaycana səfərindən, görüşlərdən və buradakı tolerantlıq, birgəyaşayış mühitindən bəhs edəcəyini də diqqətə çatdırıb.

Görüşün sonunda qonağa DQİDK-nın nəşr etdirdiyi, Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq ənənələrindən bəhs edən kitablar təqdim olunub.

# Milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu



Mənəvi dəyərlər bir cəmiyyətdə tarixən formalaşan, əksəriyyət tərəfindən qəbul olunan və ictimai münasibətlərdə mühüm rol oynayan, insanların həyat tərzini, seçimlərini müəyyən edən dünyagörüşü, kollektiv aidiyyətlik hissləri yaradan və milli şüurun əmələ gəlməsində iştirak edən vacib komponentdir.

Bu dəyərlər tarixin müxtəlif dönəmlərində insanların mənəvi, əxlaqi normaları və baxışlarının nəticəsi olaraq ortaya çıxmışdır. Bir xalqın varlığı və milli kimliyinin qorunması onun mənəvi dəyərlərinə münasibəti ilə sıx bağlıdır.

Mənəvi dəyərlərimiz bizim bir xalq olaraq formalaşmağımıza böyük təsir göstərmiş, milli dövlətçiliyimizin möhkəmləndirilməsində xüsusi rol oynamışdır. Azərbaycan xalqının bir millət kimi formalaşması və milli dövlət qurmasının əsas amillərindən biri zəngin mənəvi dəyərlər sisteminə malik olmasıdır.

Təcrübə göstərir ki, öz tarixinə, soykökünə, milli dəyərlərinə, inanclarına dönük çıxan millətlər və dövlətlər tarixi prosesdə "əriyib" yox olmuş və səhnədən birdəfəlik itmişlər. Çünki hər hansı bir xalqı, dövləti məhv etmək üçün onu milli dəyərlərindən ayırmaq kifayətdir. Bir toplumun mövcudluğunun qorunub saxlanması üçün hər şeydən öncə onun varlığını özündə ehtiva edən milli-mənəvi dəyərlərini qoruyub saxlaması lazımdır.

Azərbaycanın ən yeni tarixinə nəzər saldıqda milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı prinsiplərinin banisi kimi Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərinin şahidi oluruq. Müstəqillik dövrünün təməl daşları üzərində tarixi imzası olan Ulu Öndər Azərbaycançılıq ideologiyası əsasında xalqımızın gələcəyə gedən yolunu böyük uzaqgörənliklə müəyyən etmişdir. Milli-mənəvi dəyərlərimizə qayıdışın və milli oyanışın xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu məsələni diqqət mərkəzində saxlayan Ümummilli Liderimiz Heydər Əliyev bu sahədə lazımlı addımların atılmasına zəmin yaratmışdır. Məhz bunun nəticəsində milli-mənəvi dəyərlər sistemimiz daha da güclənmiş, aşınmadan xilas olmuş, milli dövlətçiliyimizin möhkəmlənməsinə öz töhfəsini vermişdir.

Ulu Öndər milli-mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu hesab edirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mənəvi irsinə və milli dəyərlər sisteminə böyük hörmət bəsləyən Ulu Öndər deyirdi: "Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik".

Dövlət quruculuğu sahəsində zəngin təcrübəyə malik Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən Azərbaycanın dini və etnik zənginliyini nəzərə alaraq xalqımızın tarixin dərinliklərindən süzülüb gələn tolerantlıq ənənələrinin dövlətimizin multikulturalizm siyasətinə uğurlu keçidinin əsası qoyulmuşdur. Azərbaycan xalqının təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələn Ümummilli Lider ölkədə mövcud olan xaos və özbaşınalığa son qoymuş, ölkəmizi vətəndaş qarşıdurması kimi böyük bəlalardan xilas etmişdir. Belə bir dövrdə Azərbaycanda yaşayan bütün xalqların və dinlərin nümayəndələrinin ortaq dəyərlər ətrafında birləşməsinə ehtiyac var idi. Ulu Öndər Azərbaycançılıq məfkurəsinin prinsiplərini bəyan etməklə ölkəmizin inkişafı və tərəqqisi üçün işıqlı yolun təməlini qoymuşdur. Bu yanaşmanın məntiqi nəticəsi kimi biz geridə qoyduğumuz 44 günlük Vətən müharibəsində multikulturalizm siyasətinin dövlətimiz üçün nə qədər gərəkli olduğunun canlı şahidi olduq.

Xalqımızın milli-mənəvi dəyərlərini qorumaq və inkişaf etdirmək, eyni zamanda, müasir dünyanın elmi-texniki tərəqqisi ilə ayaqlaşa bilən, mənəvi köklərinə bağlı gənc nəslin yetişdirilməsinə, hüquqi, dünyəvi, demokratik və unitar dövlət sisteminə zəmin yaradan, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən Azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi və vahid sosium üçün uğurlu bünövrədir. Bu mənada, Azərbaycançılıq millətindən asılı olmayaraq özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm istinad mənbəyi, ideoloji təməldir. Milli ideologiyamızın pozitiv xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur. Azərbaycançılıq dinindən, dilindən, millətindən, sosial mənsubiyyətindən asılı olmayaraq bütün ölkə vətəndaşlarını ümumi vətən naminə həmrəyliyə dəvət edir. Milli-dini mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın bu torpaq üçün milli yiyəlik hissini yaşaması isə tolerantlığın bariz təzahürüdür.

Bütün bunlarla yanaşı, milli dövlətçiliyimiz və mənəvi dəyərlərimiz üçün təhdidlər də mövcuddur. Xüsusilə, bu təhdid həm də ondan ibarətdir ki, dünyada qloballaşma adı altında ayrı-ayrı xalqların milli-mənəvi dəyərlərinə müxtəlif formalarda, gizlin və aşkar şəkildə təcavüz edilir. Bir sıra elm adamları bu prosesin həm də milli dövlətçiliyə qarşı olması, gələcəkdə milli sərhədlərin yoxa çıxması ilə nəticələnəcəyi barədə proqnozlar verirlər. Buna görə də, milli dövlətçiliyimizin qorunması üçün öz milli dəyərlərimizi yaşatmalı, onlara təkcə tariximizin mirası yox, gələcəyimizin təminatı kimi yanaşmalıyıq. Qloballaşma beynəlxalq əməkdaşlığı, xoş münasibətləri, səmimi dostluğu nəzərdə tutmalı, qloballaşma adı altında digər xalqların adət-ənənələrinə zidd olan, milli mentalitetə xas olmayan dəyərlərə qarşı mübarizə aparılmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 40-cı maddəsində yazılıb: "Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır". Milli şüura, milli mədəniyyətə sahib olan cəmiyyətin mövcudluğu qloballaşma mühitində milli-mənəvi dəyərlərin və dövlətçiliyin əhəmiyyətini inkar edən düşüncə tərzinin yayılmasının qarşısını alır. Dövlətimizin bu məsələdə mövqeyi dünya ilə harmonik inkişaf fonunda milli dəyərlərin qorunmasından ibarətdir. Bu baxımdan gənclərin milli-mənəvi dəyərlər əsasında - milli ruhda tərbiyə alması vacib məsələ olaraq qarşımızda durur. Bu gün dövlətin yüksək səviyyəli diqqət və qayğısının fonunda, eləcə də ölkəmizdən kənarda müstəqil formada inkişaf edən Azərbaycan gəncliyi həm milli-mənəvi dəyərlərin mənimsənilməsində, həm də təbliğində dinamik təbəqə kimi çıxış edir.

Ölkə Prezidenti cənab İlham Əliyevin vurğuladığı kimi, biz öz köklərimizə həmişə bağlı olmalıyıq və gənc nəsil bu ruhda tərbiyə almalıdır:

"... Çünki bu gün qloballaşma prosesi gedir. Düzdür, son vaxtlar

davamı səh. 6

# Milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu

əvvəli səh. 5

bu "qloballaşma" sözü daha az çəkilir. Ancaq proses gedir. Sadəcə olaraq, bəzi ölkələr qloballaşma adı altında öz təsir dairələrini genişləndirmək, xalqları, bir növ, öz milli köklərindən ayırmaq, qoparmaq, o tarixi bağları qırmaq istəyirlər. Budur bunun təməlində dayanan əsas məqsəd. Əlbəttə ki, indi qloballaşma deyəndə bəziləri bunu inteqrasiya, dünyanın yeni inkişaf modeli kimi qələmə verirlər. Ola bilər, müsbət məqamlar da var, onları mən inkar etmək istəmirəm. Ancaq eyni zamanda, açıq-aydın görünür, bu siyasətlə böyük dairəyə hakim olmaq, təsir imkanlarını genişləndirmək istəyirlər ki, xalqlar öz köklərindən ayrılsınlar, öz əcdadlarını, tarixlərini unutsunlar, sadəcə amorf, kosmopolit bir kütləyə çevrilsinlər ki, onları istənilən istiqamətə göndərmək mümkün olsun. Ona görə milli ruhda tərbiyə almaq hər bir gəncin borcudur. Yaşlı nəslin borcudur ki, bax bu ənənələri yaşatsınlar və gəncləri milli ruhda böyütsünlər".

Cənab Prezidentin yuxarıdakı çıxışından yola çıxaraq 2020-ci il sentyabrın 27-də başlamış Vətən müharibəsi zamanı öz təntənəsini yaşayan dövlət-xalq birliyindən bu birliyin əldə olunmasında və möhkəmlənməsində milli-mənəvi dəyərlərimizin rolunu daha aydın anlamaq olar. Tarixdən də məlum olduğu kimi, xalqın milli ruhu dövlətin siyasəti ilə daha da yüksəlir, onu regional və qlobal təhdidlərə qarşı səfərbər edir, qarşıya qoyulmuş hədəflərə, milli maraqların təmin olunmasına zəmin yaradır. Vətən müharibəmiz ölkəmizin müxtəlif etnik mənsubiyyətə malik vətəndaşlarının, bütövlükdə isə xalqımızın birlik və vəhdətinin alnıaçıq sınağı oldu, əslində, bütün millətimizin qəhrəmanlığı ən çətin şəraitdə nümayiş olunaraq bir daha təsdiqini tapdı.

Uzun illər aparılmış məqsədyönlü siyasətin məntiqi nəticəsi kimi 44 günlük aktiv müharibədə Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərək tarixi zəfərə nail oldu. Müharibənin ilk günündən Ali Baş Komandanın qətiyyəti, zəfərə inamlı çağırışı böyük ruh yüksəkliyi yaratdı və dinindən, etnik mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq bütün vətəndaşlarımızın güc və enerjisini qələbəyə yönəltdi. Vətən müharibəsi göstərdi ki, lazım gəldikdə bütün ölkə vətəndaşları dinindən, məzhəbindən, inancından asılı olmayaraq bir yumruq kimi birləşə bilir.

Vətən müharibəsi ərəfəsində və ondan sonrakı dövrlərdə Ermənistanın bu münaqişəni əsl mahiyyətindən yayındırıb, dini müstəvidə təqdim edərək dəstək qazanmaq cəhdləri də artdı. Ermənilər tarixin müxtəlif dönəmlərində zorla erməniləşdirilmiş bir sıra qədim xristian abidələrinin təhlükədə olduğu, yerli əhalinin guya dini etiqad azadlığının pozulduğu barədə hay-həşir qopardılar. Azərbaycanın öz sərhədləri daxilində öz suveren hüquqlarını, ərazi bütövlüyünü bərpa etməsi üçün apardığı hərbi əməliyyatları tamamilə təhrif edərək bunun ermənilərin timsalında xristian dünyasına qarşı yönəlməsi kimi qələmə verməyə çalışdılar. Təbii ki, erməni xislətinə uyğun olaraq Ermənistanın yüksək çinli rəsmilərinin "yeni müharibə, yeni ərazilər" barədə bəyanatlarını və bu iddiaları reallaşdırmaq üçün Azərbaycana özlərinin hücum etdiklərini gizləməyə çalışdılar.

Məhz bu məqamda Ermənistanın iddialarını puça çıxaran bir sıra amilləri vurğulamaq yerinə düşər:

- Azərbaycan xalqının tarixən formalaşmış zəngin tolerantlıq ənənələri;
- Azərbaycan dövlətinin demokratik, hüquqi, dünyəvi konstitutsion əsaslara söykənməsi;
- Azərbaycanın müxtlif dinlərə, inanclara münasibətdə həyata keçirdiyi daxili və xarici siyasət;
- Azərbaycan həqiqətlərinin, o cümlədən, mədəniyyəti və multikulturalizminin dünyada uğurlu təbliği.

Azərbaycan xalqının tarixən formalaşmış zəngin tolerantlıq ənənələri artıq uzun illərdir ki, həm regional, həm də qlobal miqyasda bütün dövlətlərə, beynəlxalq və regional təşkilatlara, həmçinin, ölkəmizə səyahət edən müxtəlif millətlərdən olan turistlərə, elm və iş adamlarına məlumdur. Əsrlər boyu yəhudilərin ölkəmizdə kompakt şəkildə sülh və əmin-amanlıq şəraitində yaşamaları, həmçinin, Xristianlığın demək olar ki, bütün qollarının ölkəmizdə təmsil olunması, Bəhailik, Krişnaçılıq kimi inancların sərbəst fəaliyyət göstərməsi, bütün dinlərin mənsublarına aid mədəni-tarixi abidələrin xalq tərəfindən günümüzədək qorunması və hazırda dövlətin qayğısı və himayəsi altında olması kimi çoxsaylı faktlar ermənilərin iddialarının əksini sübut edir.

Eyni zamanda, Konstitusiyamızda Azərbaycan Respublikasında dinin dövlətdən ayrı olması, bütün dini etiqadların qanun qarşısında bərabərliyi və Azərbaycan xalqının vahidliyi prinsipləri bu iddiaların əsassızlığını göstərir. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ Konstitusiyamızda təsbit olunmuşdur və bu prinsiplər praktikada öz əksini həmişə parlaq şəkildə tapır. Nəinki Azərbaycanda, hətta digər ölkələrdə də dövlətimiz dini abidələrin təmir və bərpası istiqamətində böyük layihələr həyata keçirmiş və burada qeyri-islam abidələri xüsusi yer tutmuşdur.

Bu erməni iddialarını çürüdən digər fakt Azərbaycanda təmsil olunan bütün konfessiyaların, o cümlədən, həm katolik, həm də pravoslav xristianların dövlətimizlə həmrəylik nümayiş etdirməsi, bununla bağlı rəsmi bəyənatları, eləcə də dini etiqadından asılı olmayaraq Vətən müharibəsində iştirak etməsi oldu. Bütün bunlar Azərbaycanın burada yaşayan bütün dini və etnik qrupların əzəli və əbədi, bölünməz Vətəni olduğunu göstərir.

Beləliklə, tam əminliklə demək olar ki, Azərbaycan xalqı müxtəlif dini və etnik qruplardan təşkil olunsa da, onları birləşdirən müqəddəs dəyərlər var. Bu dəyərlərin içərisində ən ümdəsi ortaq Vətən və əsrlər boyu formalaşmış, qarşılıqlı hörmət və etimada əsaslanan mənəvi dəyərlərdir. Məhz bu mənəvi dəyərlər bizim Vətənimiz və milli dövlətçiliyimiz naminə birliyimizi möhkəmləndirir və gələcəyə gedən yolumuza işıq tutur.

**Səyyad SALAHLI,**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
sədrinin birinci müavini
*525-ci qəzet*

# Səyavuş Heydərov: Bəzi qüvvələr öz maraqlarını təmin etmək üçün dindən vasitə kimi istifadə edirlər



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini (DQİDK) Səyavuş Heydərov fevralın 18-də Özbəkistanda "Radikalizm, ekstremizm və terrorizmlə mübarizədə gənclərin rolu" mövzusunda keçirilən beynəlxalq videokonfransda iştirak edib.

Tədbirə BMT, ATƏT, Aİ və s. təşkilatların, eləcə də dünyanın bir çox ölkəsinin dövlət qurumlarının nümayəndələri, ekspertlər qatılıblar.

Səyavuş Heydərov videokonfransda "Terrorizm, ekstremizm və radikalizmin qarşısının alınması və mübarizə sahəsində beynəlxalq əməkdaşlıqla bağlı əsas vəzifə və prioritetlərin müəyyən edilməsi" mövzusunda çıxış edib. Bildirib ki, terrorizmin səbəbləri arasında dindən siyasi məqsədlərlə istifadə edilməsi xüsusi çəkiyə malikdir. Bu gün din öz mahiyyətindən uzaqlaşdırılaraq, sürətlə siyasiləşdirilir və bunda bəzi qüvvələrin öz maraqlarını təmin etmək üçün dindən vasitə kimi istifadə etməsi böyük rol oynayır.

Bu prosesin ağır nəticələri İslam dünyasında müşahidə edilməkdədir. Terrorizm, ekstremizm və silahlı münaqişələrə görə bəzi müsəlman ölkələrində dövlətin idarəetmə mexanizmləri iflasa uğrayıb, de-fakto ərazi bütövlükləri pozulub. Səyavuş Heydərov onu da vurğulayıb ki, belə hadisələrin mənfi təsiri İslam dünyası ilə məhdudlaşmır. Qaçqınların Avropa və digər ölkələrə axın etməsi nəticəsində bəzi dövlətlərdə radikal milliyyətçi elementlər bu prosesdə din amilini qabardaraq, ondan siyasi məqsədlər üçün istifadə edirlər. Nəticədə cəmiyyətdə ksenofobiya, xüsusilə də İslamofobiya meyilləri güclənir.

Çıxışında bu kimi mənfi təzahürlərin qarşısının alınması yollarına toxunan sədr müavini dinin siyasi məqsədlər naminə istifadə edilməsinin qarşısının alınması, dinlər və mədəniyyətlərarası dialoq ənənələrinin qorunması, inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırıb. Qeyd edib ki, terrorizm, ekstremizm və radikalizmin qarşısını almağın yolu din haqqında anlayışların müasir dövrün tələblərinə və çağırışlarına uyğun yenilənməsindən keçir. Dinin sabit, dəyişilməz prinsiplərini əsrlərboyu adət-ənənələrdən gələrək dinə hopmuş, dini hökmlər kimi insanlara sırınmağa çalışılan xüsusiyyətlərdən ayırd etmək vacibdir. Əks təqdirdə, bu, dini şüurun qapanmasına, nəticədə ekstremizm və terrorizmin başlanğıcı olan fanatiklik və radikallığa yol açır.

Eyni zamanda müasir gəncliyin əsas informasiya mənbəyi olan internet resurslarında ekstremist, terrorist və radikal qrupların fəaliyyətinin məhdudlaşdırılması istiqamətində müvafiq mexanizmlərin və standartların müəyyənləşdirilməsinə ehtiyac olduğu və bu sahədə beynəlxalq hüquqi normanın düzgün müəyyənləşdirilməsinin sülhə böyük töhfə verəcəyi vurğulanıb.

DQİDK sədrinin müavini həmçinin çıxışı zamanı 30 ildən çoxdur ki, ölkəmizin erməni vandalizmi, terrorizmi, ekstremizminin qurbanı olduğunu və Ermənistan tərəfinin təcavüzkar siyasətini və əməllərini gizlətmək üçün bu müharibəyə dini don geyindirməyə çalışdığını, onu müsəlman-xristian münaqişəsi kimi təqdim etməyə, o cümlədən xristian dinini siyasiləşdirməyə cəhd göstərdiyini bildirib. Qısa müddət ərzində zəfər qazanan Azərbaycan dövlətinin səyləri nəticəsində bu siyasətin iflasa uğradığını diqqətə çatdırıb.

Sonda Komitə rəsmisi belə bir aktual mövzuya həsr olunmuş konfransa dəvətə görə təşəkkürünü bildirib və hər bir dövlətin terrorizm, eksremizm və radikalizmə qarşı mübarizəyə öz maraqları çərçivəsində deyil, insanpərvərlik və ümumbəşəri dəyərlərin qorunması kontekstində yanaşmasının əhəmiyyətinə diqqət çəkib.

# Gündüz İsmayılov: “İrəvanda qədim məscidi şərab zavoduna çeviriblər”



İşğaldan azad edilən Qarabağda olduğu kimi, ermənilər Qərbi Azərbaycan ərazisi olan indiki Ermənistanda, İrəvan və Zəngəzurda da tarixi-dini abidələri ya məhv edib, ya da saxtalaşdırıblar.

Bunu Azvision.az-a açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov deyib. O bildirib ki, ermənilərin məqsədi azərbaycanlıların izlərini qədim Azərbaycan torpaqlarından silmək olub: “Onlar qədim alban abidələrini erməni qriqoryan kilsəsinə çevirmək məqsədilə saxtakarlığa əl atıblar. İslam dininə aid məbədlərimizi yerlə-yeksan ediblər. Bunların içərisində ziyarətgahları, məscidləri xüsusi qeyd etmək istəyirəm. Hesablamalara əsasən, Ermənistan ərazisində 100-lərlə ziyarətgah olub. Bunların hər biri dağıdılıb. Onlarla məscid olub, həmin məscidlər də dağıdılıb. Yalnız bir məscid - İrəvan şəhərindəki qədim Azərbaycan məscidi olan Göy məscid saxlanılıb. Amma saxtakarlıq edərək onu da İran-fars məscidi kimi qələmə veriblər. Bu gün İrəvanın mərkəzindəki həmin məscid fars mədəniyyətinin nümunəsi kimi təqdim edilir”.

G.İsmayılov bildirib ki, ermənilər saxtakarlığa əl ataraq saxladıqları həmin məscidlə özlərini dünyaya “tolerant” ölkə kimi göstərmək istəyirlər.

“Guya onların İslam və müsəlmanlarla problemi yoxdur və buna nümunə olaraq məscid fəaliyyət göstərir. Lakin bu məkrli münasibətdir. İndiki Ermənistan ərazisindəki alban abidələrinin hamısı qriqoryanlaşdırılıb. Bunların içərisində Zəngəzurda yerləşən Tatev məbədini xüsusi qeyd etmək istəyirəm. Bu məbəd həm tarixi, həm quruluşu, həm əzəmətinə görə alban irsinin ən önəmli məbədlərindən biridir. Təəssüf ki, bu məbəd qriqoyanlaşdırılıb”.

Sədr müavini qeyd edib ki, Zəngəzur mahalının Meğri rayonunun Buğakar kəndi ərazisindəki müsəlman ziyarətgahının tarixi İslamın ilk dövrlərinə qədər gedib çıxırdı: “Amma ermənilər o ziyarətgahı da yerlə yeksan ediblər. Qərbi Azərbaycandakı İslam abidələri içərisində təkcə məscidlər deyil, karvansaraylar, hamamlar, qalalar, məscidlər olub. İrəvan şəhərində və kənarında onlarla məscid olub, hamısı dağıdılıb. Sovet dövründə bəzi məscidlər anbar kimi istifadə edilib. Sovet dövründən sonra onlar da yer üzündən silinib. Bizdə məlumat var idi ki, İrəvandakı qədim məscidlərdən biri şərab zavodunun bir hissəsinə çevrilib. Bu cür faktlar kifayət qədərdir”.

İşğaldan azad edilən Qarabağda olduğu kimi, ermənilər Qərbi Azərbaycan ərazisi olan indiki Ermənistanda, İrəvan və Zəngəzurda da tarixi-dini abidələri ya məhv edib, ya da saxtalaşdırıblar.

Bunu Azvision.az-a açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov deyib. O bildirib ki, ermənilərin məqsədi azərbaycanlıların izlərini qədim Azərbaycan torpaqlarından silmək olub: “Onlar qədim alban abidələrini erməni qriqoryan kilsəsinə çevirmək məqsədilə saxtakarlığa əl atıblar. İslam dininə aid məbədlərimizi yerlə-yeksan ediblər. Bunların içərisində ziyarətgahları, məscidləri xüsusi qeyd etmək istəyirəm. Hesablamalara əsasən, Ermənistan ərazisində 100-lərlə ziyarətgah olub. Bunların hər biri dağıdılıb. Onlarla məscid olub, həmin məscidlər də dağıdılıb. Yalnız bir məscid - İrəvan şəhərindəki qədim Azərbaycan məscidi olan Göy məscid saxlanılıb. Amma saxtakarlıq edərək onu da İran-fars məscidi kimi qələmə veriblər. Bu gün İrəvanın mərkəzindəki həmin məscid fars mədəniyyətinin nümunəsi kimi təqdim edilir”.

G.İsmayılov bildirib ki, ermənilər saxtakarlığa əl ataraq saxladıqları həmin məscidlə özlərini dünyaya “tolerant” ölkə kimi göstərmək istəyirlər.

“Guya onların İslam və buna nümunə olaraq məscid fəaliyyət göstərir. Lakin bu məkrli münasibətdir. İndiki Ermənistan ərazisindəki alban abidələrinin hamısı qriqoryanlaşdırılıb. Bunların içərisində Zəngəzurda yerləşən Tatev məbədini xüsusi qeyd etmək istəyirəm. Bu məbəd həm tarixi, həm quruluşu, həm əzəmətinə görə alban irsinin ən önəmli məbədlərindən biridir. Təəssüf ki, bu məbəd qriqoyanlaşdırılıb”.

Sədr müavini qeyd edib ki, Zəngəzur mahalının Meğri rayonunun Buğakar kəndi ərazisindəki müsəlman ziyarətgahının tarixi İslamın ilk dövrlərinə qədər gedib çıxırdı: “Amma ermənilər o ziyarətgahı da yerlə yeksan ediblər. Qərbi Azərbaycandakı İslam abidələri içərisində təkcə məscidlər deyil, karvansaraylar, hamamlar, qalalar, məscidlər olub. İrəvan şəhərində və kənarında onlarla məscid olub, hamısı dağıdılıb. Sovet dövründə bəzi məscidlər anbar kimi istifadə edilib. Sovet dövründən sonra onlar da yer üzündən silinib. Bizdə məlumat var idi ki, İrəvandakı qədim məscidlərdən biri şərab zavodunun bir hissəsinə çevrilib. Bu cür faktlar kifayət qədərdir”.

# Alban-udi xristian dini icmasının üzvləri Laçında “Ağoğlan” monastırını ziyarət ediblər



Alban (Qafqaz) Apostol Müstəqil Kilsəsinin varisi olan Azərbaycan Alban-udi dini icmasının nümayəndələri fevralın 6-da Laçın rayonu ərazisində yerləşən qədim alban məbədi “Ağoğlan” monastırını ziyarət ediblər. Ziyarətə Alban-udi xristian dini icması ilə yanaşı, Vətən müharibəsinin iştirakçıları olan udi gəncləri də qatılıb.

Dini icmanın sədr müavini Rafik Danakarinin rəhbərliyi ilə “Ağoğlan” məbədində ayin icra olunub, şamlar yandırılıb.

Ayindən sonra Rafik Danakari jurnalistlərə açıqlamasında bu günün udi icması üçün müqəddəs gün olduğunu bildirib: “Biz 180 ildən sonra ilk dəfə “Ağoğlan” məbədinə gəldik. Ona görə ki, bu məbədi bizim ulu babalarımız ziyarət ediblər. Biz də bu gün həm icma nümayəndələri, həm də Vətən müharibəsində iştirak edən əsgərlərlə bura gəlib ziyarət etdik, dualar oxuduq, şam yandırdıq. Allaha şükürlər etdik ki, müharibə bitdi, torpaqlarımız işğaldan azad olundu. Biz Qarabağ müharibəsində şəhid olanlar üçün dualar oxuduq, yaralıların şəfa tapmasını arzuladıq”.

İcmanın sədr müavini Azərbaycanın multikultural ölkə olmasını bu gün dünyaya bir daha sübut etdiklərini vurğulayıb. O qeyd edib ki, Azərbaycanda olan bütün məscidlər, kilsələr və sinaqoqlar Azərbaycan xalqının irsidir. “Ağoğlan” məbədində ermənilərin işğal müddətində etdikləri dəyişikliklərə də toxunan sədr müavini monastırın mehrabının təhrif edildiyini diqqətə çatdırıb: “Alban məbədlərində mehrab 3, erməni kilsələrində isə 5-6 pilləkən hündürlüyündə olur. Ermənilər burada



dəyişiklik edərək mehrabı daha hündür ediblər. Bundan başqa, xaç daşlarını dəyişiblər. Divarlara erməni xaçları çəkiblər. Lakin binanın özünün konstruksiyası göstərir ki, bura alban məbədidir”.

Qeyd edək ki, erməni vandalizminin qurbanı olan abidələrimizdən biri də “Ağoğlan” monastırıdır. Bu monastır Ağoğlan çayının sahilində, Laçın şəhərinə yaxın ərazidə yerləşir və V-VI əsrlərə aid bazilikadır.

VII əsrdə ərəb istilasının başlanmasınadək Laçın ərazisi Alban dövlətinin tərkibində olub. Abidə müxtəlif vaxtlarda uçqun və dağıntılara məruz qaldığından IX əsrdə yenidən inşa edilərək forma etibarilə monastır üslubuna uyğunlaşdırılıb. Bu abidə təmir edilərkən bünövrələri olduğu kimi saxlanılıb, divarları yenilənib.

Laçın rayonu 1992-ci ildə Ermənistan tərəfindən işğal olunduqdan sonra burada Azərbaycan türklərinin minilliklər ərzində yaratdığı tarixi və mədəni abidələr erməni vandalizmi nəticəsində yerlə-yeksan edilib. Azərbaycanın qədim türk boylarına, həmçinin Alban dövlətinə aid abidələri dağıdılıb. Alban kilsələri ciddi saxtakarlıqlara məruz qalaraq erməni kilsələrinə çevrilib. “Ağoğlan” monastırı da belə saxtakarlığa uğrayıb. Ermənilər monastırı özününküləşdirmək üçün onun memarlıq quruluşu və interyerinə qeyri-qanuni olaraq dəyişiklik ediblər.



# Mübariz Qurbanlı: "Ermənistanın Qarabağ bölgəsini məhv etməsi İŞİD-i xatırladır"

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının İsrailin www.jewishpress.com media portalına müsahibəsi*

**- İşğal olunmuş Azərbaycan ərazilərində dini abidələrin dağıdılması nə dərəcədə ağırdır? Burada İŞİD-in əməlləri ilə oxşarlıq görürsünüz?**

- Bütün dünyada Azərbaycan memarlıq nümunələri özünün xarakterik xüsusiyyəti ilə seçilir. İslam dini ilə bağlı olan tarixi-dini abidələrimiz də bu qəbildəndir. Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində dini-mədəni irsin məhv edilməsinə və saxtalaşdırılmasına yönələn, beynəlxalq konvensiyalarda bəşəri cinayət kimi qiymətləndirilən əməllər törətmişdir.

İslam dininə aid ibadət evləri məhv edilmiş və ya təhqir edilərək tövlə kimi istifadə edilmiş ("Aşağı Gövhər Ağa" məscidi, Ağdam Cümə məscidi və s.), qədim Azərbaycan dövləti Qafqaz Albaniyasına məxsus Xristian məbədləri isə məhv edilmiş və ya saxtalaşdırılaraq erməniləşdirilmişdir – ermənilər tərəfindən qriqoryan kilsəsinə çevrilmişdir ("Ağoğlan" məbədi, "Xudavəng" məbədi, "Tatev" məbədi, "Gəncəsər" məbədi və s.).

Ermənilər bu yolla bizim minilliklər boyu yaşadığımız torpaqlardan həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı silməyə cəhd göstərmişlər. Ermənistanın Azərbaycan ərazilərində dini-mədəni irsin məhv edilməsinə və saxtalaşdırılmasına yönələn cinayət əməlləri ümumilikdə bəşəriyyətə qarşı soyqırımıdır. Bunun əksinə olaraq Azərbaycan bütün dini abidələri bərpa etmiş, yenilərini tikmişdir.

2020-ci il Azərbaycan tarixi üçün əlamətdar hadisə ilə yadda qalmışdır. Belə ki, ötən ilin sentyabr ayının 27-də Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın işğal olunmuş əraziləri və cəbhəyanı bölgələrdə törətdikləri təxribatlara cavab olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən əks-hücum hərbi əməliyyatı başlanmışdır. 10 noyabr 2020-ci il tarixində Azərbaycan, Rusiya prezidentləri və Ermənistan Baş nazirinin imzaladığı bəyannaməyə əsasən hərbi əməliyyatlar dayandırılmış, Ermənistan Silahlı Qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılması prosesi başlanılmışdır.

30 illik uzun dövr ərzində UNESCO kimi beynəlxalq təşkilatların bu məsələlərlə bağlı faktaraşdırıcı missiya göndərməməsi məyusluq doğurur. Belə hallar beynəlxalq təşkilat və qurumların obyektivliyi və ədalətliliyinə şübhə yaradır.

İşğaldan azad edilmiş Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonun ərazisində Azərbaycanın tarixi, mədəni və dini irsi məhv edilmişdir. Belə ki, Ermənistanın təcavüzünə qədər işğal olunmuş ərazilərimizdə mövcud olmuş 67 məscid, 48 türbə də daxil olmaqla 192 ziyarətgah, 128 Alban Xristian məbədi qriqoriyanlaşdırılmış və ya dağıdılmışdır. Həmin ərazilərdə yerləşən məscidlərdən yalnız birində – Şuşa şəhəri Yuxarı Gövhər ağa məscidində 2016-2018-ci illərdə təmir aparılmışdır ki, təmir işləri zamanı da onun tarixi orijinallığı pozulmuş, məscidin kitabəsi dəyişdirilərək digər müsəlman ölkəsinə məxsus məscid kimi təqdim olunmuşdur. Həmçinin qeyd etməliyəm ki, son hərbi münaqişə zamanı Ermənistan Silahlı Qüvvələri qadağan edilmiş ballistik raketlərdən mülki əhalini atəşə tutmuş, nəticədə 11 nəfəri uşaq olmaqla, 94 mülki vətəndaş qətlə yetirilmiş, 400-dən artıq insan yaralanmışdır. Eyni zamanda, düşmən Füzuli rayonu ərazisində yerləşən Babı Türbəsini, Tərtər rayonundakı müsəlman qəbiristanını, Gəncə şəhərində dini abidələri hədəf almışdır. Raket hücumları nəticəsində, hətta Gəncə şəhərində yerləşən rus-pravoslav kilsəsinin binası da zərər görmüşdür.

Lakin Azərbaycan Silahlı Qüvvələri tərəfindən düşmənin mülki obyektlərinə, habelə dini təyinatlı binalara hər hansı hücum əməliyyatı həyata keçirilməmişdir. Artilleriya və raket atışları zamanı buna xüsusi diqqət ayrılmışdır. Nəticədə döyüşlər zamanı heç bir dini abidə zərər görməmişdir. Hərbi əməliyyatlar bitdikdən sonra Azərbaycan hökuməti işğaldan azad edilmiş ərazilərdəki Ermənistan Silahlı Qüvvələri tərəfindən dağıdılmış bütün dini abidələrin bərpa ediləcəyini bəyan etmişdir.

**İŞİD-Ermənistan tandemi**

Dini-mədəni abidələrin dağıdılmasında İŞİD-lə Ermənistanı birləşdirən ortaq cəhətlər radikal ideologiyaya əsaslanan ektremizm hərəkətləridir. İŞİD Suriyanın qədim Palmira, İraq ərazisindəki qədim Nimrud şəhərlərini və dünyanın qədim tarixi-mədəni abidələrini dağıtdığı kimi erməni ektremistləri də Qafqazın mədəniyyət beşiyi sayılan Qarabağda mədəni-tarixi və dini abidələri dağıtmış, məhv etmiş, mədəni soyqırım törətmişlər. Təsadüfi deyildir ki, beynəlxalq ekspertlər Ağdam və digər işğaldan azad edilmiş şəhərləri "kabuslar şəhəri" adlandırmışlar - Böyük Britaniyanın Qafqaz üzrə tanınmış eksperti Tomas de Val isə ermənilər tərəfindən dağıdılmış Ağdamı "kiçik Hiroşima" adlandırmışdır. Bununla Ermənistan son aylaradək işğal altında saxladığı ərazilərdə Azərbaycan xalqının irsi və izini silmək üçün səylə çalışmış, bütün Azərbaycan şəhər və kəndlərinin adlarını dəyişmişdir.

**- Azərbaycan dini-mədəni irsini bərpa etmək üçün nə kimi işlər görür?**

- Dünyəvi dövlət olmasına baxmayaraq, Azərbaycanda din dövlətin xüsusi diqqət yetirdiyi sahələrdən biridir. Bu gün Azərbaycanda mövcud olan dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət, əldə edilən uğurlar, ictimai-siyasi həyatdakı sabitlik din sahəsində də özünü göstərir. Bütün dini konfessiyalar dövlətin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunur, hər il dövlət başçısı tərəfindən dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi məqsədilə maliyyə vəsaiti ayrılır, bütün dini ibadət ocaqları təmənnasız təbii qazla təmin edilir.

Dini mənsubiyyətindən asılı olmayaraq ölkə ərazisindəki bütün tarixi-dini abidələrin Azərbaycan hökumətinin daimi diqqət mərkəzində olması, dini ziyarətgahların mütəmadi olaraq bərpa edilməsi, yenilərinin tikilməsi və xalqımızın istifadəsinə verilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsi milli-mənəvi dəyərlərimizə olan böyük xidmətdir. Dövlət tərəfindən bərpa edilərək mühafizə olunan abidələr içərisində Bakının mərkəzindəki erməni kilsəsi də vardır. Hazırda Prezident Kitabxanasının balansında olan erməni kilsəsində nadir erməni ədəbiyyat fondu və depozitar fond saxlanılır. *Prezident İlham Əliyev çıxışlarının birində deyib: "Bizim ərazimizdə olan bütün məbədlər tarixi sərvətimizdir. Azərbaycanda hər il humanitar və mədəniyyətlərarası, dinlərarası dialoq forumları, dünya dini liderlərinin Zirvə görüşləri keçirilir. Baxın, görün, nələr deyilib bizim haqqımızda. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dininə olan münasibəti örnək kimi göstərir. Rusiya Pravoslav Kilsəsinin patriarxı Kiril Bakıda olarkən Azərbaycanda bu sahədə görülmüş işlərə yüksək qiymət verib, Pravoslav kilsələrində olub. Roma Papası Fransisk Bakıda olarkən rəsmi çıxışında Azərbaycanda tolerantlıq, dini dözümlülük, multikulturalizm haqqında danışıb".*

Azərbaycan dövləti öz dini-mədəni abidələri ilə yanaşı, ölkə xaricində də bəşər mədəniyyəti üçün xüsusi əhəmiyyət daşıyan abidələrin bərpası, yenidən qurulması işinə öz töhfəsini verməkdədir. Belə ki, mədəni irsimizin qorunmasına, tarixi abidələrimizin bərpasına böyük önəm verən, beynəlxalq aləmdə milli, dini dəyərlərimizin təbliği sahəsində məqsədyönlü işlər görən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti ölkəmizdə dinə olan dövlət qayğısının əyani təzahürüdür. Qeyd edim ki,



Fondun bu istiqamətdə fəaliyyəti ölkə daxili ilə məhdudlaşmır. Fondun maliyyə dəstəyi ilə Vatikanda Müqəddəs Marçellinio, Pietro, Müqəddəs Sebastian katakombalarının bərpası həyata keçirilib, Fransada Notr-Dam kilsəsinin təmirinə maliyyə vəsaiti ayrılıb, Rusiyada Xristianlığın qəbul edilməsinin 1025 illiyinə və Həştərxanın təməlinin qoyulmasının 455 illiyinə həsr edilən Müqəddəs Vladimir kilsəsinin qarşısındakı meydanda Knyaz Vladimirin abidəsi ucaldılıb. Bununla yanaşı Fransanın Orn departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım edilmişdir.

Qeyd olunanlar, eləcə də müharibə vəziyyətinin davam etdiyi vaxtda, 2020-ci ilin 7 noyabr tarixində qədim Qafqaz Albaniyasının paytaxtı olan Qəbələnin Nic qəsəbəsindəki Alban kilsəsinin Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir və bərpa edilərək istifadəyə verilməsi onu deməyə əsas verir ki, Azərbaycan dövləti hər zaman olduğu kimi bu gün də öz multikulturalizm, tolerantlıq prinsiplərinə əsaslanan siyasətinə sadiq qalır və qalacaqdır. Başqa sözlə, işğaldan azad edilmiş torpaqlarımızda mövcud olan bütün dini-mədəni abidələrimiz və ziyarətgahlarımız kimi Qafqaz Albaniyasına mənsub Xristian abidələri də tezliklə bərpa ediləcəkdir. Belə ki, işğaldan azad edilmiş ərazilərdə təmir-bərpa işləri artıq başlanmışdır. Ölkə ərazisindəki Alban kilsələri ilə yanaşı Rus pravoslav kilsələri, Katolik kilsəsi də dövlət tərəfindən mütəmadi bərpa edilir və ya yeniləri tikilir.

Bununla əlaqədar ölkə başçısının Sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə "Qarabağ Dirçəliş Fondu" yaradılmışdır.

Bir sözlə, Azərbaycan dövləti və xalqı multikulturalizm, tolerantlıq, birgəyaşayış, həmrəylik kimi ideyaları sözdə deyil, əməldə göstərir.

**- Xristian dininə mənsub olmasına baxmayaraq, Ermənistanın Alban kilsələrini necə məhv etdiyi barədə mümkünsə məlumat verərdiniz.**

- İlk növbədə qeyd edim ki, din Ermənistan üçün hər zaman alət rolunu oynamışdır. Onların qriqoryan təriqətinin əsl mahiyyətini araşdırdıqda, hətta Xristianlıqda qeyd olunanların əksini görmək olar. Tarix boyu onlar müsəlman, xristian və yəhudilərə qarşı soyqırımlar etmişdir.

Azərbaycan Avropa ilə Asiya qitəsinin yolayrıcında, tarixi İpək Yolunun üzərində yerləşdiyi üçün ölkədə Xristianlıq hələ İsa Məsihin şagirdləri dövründə yayılmağa başlamışdır. Belə ki, Azərbaycan ərazisində - o dövrdə Albaniya dövlətində Xristianlığın yayılması İsa Məsihin həvariləri Faddey və Varfolomeyin, eləcə də apostol Faddeyin şagirdləri Müqəddəs Yelisey və Marın adları ilə bağlıdır. Bu fakt olduqca önəmlidir. Çünki bu amil Alban Kilsəsinin qədim olmasını göstərməklə yanaşı, həm də onun

davamı səh. 9

# Mübariz Qurbanlı: "Ermənistanın Qarabağ bölgəsini məhv etməsi İŞİD-i xatırladır"

əvvəli səh. 8

başqa kilsələr vasitəsilə deyil, birbaşa İsa Məsihin şagirdləri – həvariləri tərəfindən təsis olunduğunu ortaya qoyur. M.Kalankatuklu yazır ki, Yelisey Qafqaz Albaniyasına Qüds patriarxı tərəfindən göndərilmişdi. Alban Apostol Kilsəsinin öz başlanğıcını bilavasitə Qüds Kilsəsindən götürməsi onu Erməni-qriqoryan Kilsəsindən fərqləndirən və tarix boyu erməniləri qıcıqlandıran əsas amil olmuşdur. Məhz buna görə də biz tarixin müxtəlif dövrlərində ermənilərin bu torpaqları zəbt etmiş yadellilərə yarınmaq qarşılığında Alban Kilsəsinin Erməni-qriqoryan Kilsəsindən asılı vəziyyətə salındığının, bununla da, Alban Kilsəsinin ermənisayağı qisasın qurbanına çevrildiyinin şahidi oluruq. Azərbaycan ərazisi çar Rusiyası tərəfindən işğal olunduqdan sonra isə ermənilər əsrlər boyu davam edən məkrli niyyətlərinə nail oldular. Belə ki, Erməni-qriqoryan Kilsəsinin təhriki ilə imperator I Nikolay 1836-cı ildə Alban Katolikosluğunu ləğv etdi, onun yerində isə erməni katolikosluğunun tabeçiliyinə verilən iki yeparxiya və Erməni Kilsəsinin Tiflis konsistoriyasının tərkibində olan Gəncə vikariatlığı yaradıldı. Bu, tam qeyri-qanuni olub. Çünki Erməni Kilsəsi ilə Alban Kilsəsi dini baxımdan tamamilə ayrı istiqamətlərdir.

Maraqlısı odur ki, çar Rusiyasının dövründə Dağlıq Qarabağdakı alban kilsələri Erməni-qriqoryan Kilsəsinin himayəsinə keçsə də, onlar həmin kilsələrdə ibadət etməyiblər. Hətta sovet dövründə həmin tarixi abidələr Azərbaycan xalqının irsi kimi mühafizə olunub və orada heç zaman dini ayin icra edilməyib. O zaman ortaya ritorik sual çıxır: əgər bunlar ermənilərə aid dini məbədlərdirsə, nəyə görə ermənilər bu kilsələrdə heç vaxt ibadət etməyiblər? Məsələn, Xudavəng, Gəncəsər, Ağoğlan kilsələri XIX əsrdə zorla erməni kilsəsinin tabeçiliyinə verildikdən sonra da ermənilər bu kilsələrdə ayin keçirməyiblər, o cümlədən sovet dövründə, İkinci Dünya müharibəsindən sonra dinə qarşı başlayan yumşalma dövründə də bu kilsələrdən istifadə etməyiblər. Dağlıq Qarabağdakı Xristianlığa aid dini abidələr erməni kilsəsinə bağlı idisə, nəyə görə ermənilər çar Rusiyası və sovet vaxtı bu kilsələrlə heç maraqlanmayıblar? Çünki özlərinki saymayıblar. O kilsələri sovet dövründə də biz qoruyub-saxlamışıq. Yalnız Azərbaycan ərazilərini işğal etdikdən sonra ermənilər alban kilsələrini qriqoryanlaşdırıb, onun interyerində və eksteryerində dəyişikliklər aparıb, Alban xaçlarını erməni xaçları ilə dəyişdiriblər ("Ağoğlan" məbədi, "Xudavəng" məbədi, "Tatev" məbədi, "Gəncəsər" məbədi və s.). Bunu da Qarabağı zəbt etdikdən sonra bu torpaqlarda daimi məskunlaşmaq məqsədilə ediblər. Onlar həmişə Qafqaz Albaniyası kilsələri ilə mübarizə aparıblar. Ona görə də Erməni-qriqoryan Kilsəsinin rəhbərləri yalnız işğaldan sonra bu məkrli niyyətlərini həyata keçirmək üçün, bu torpaqlarda qalmaq məqsədi ilə çoxlu sərmayə yatıraraq hərbi istehkamlarla yanaşı, "ideoloji istehkamlar" da yaradıblar. Ancaq bütün Azərbaycan xalqı əmindir ki, biz möhtərəm Prezidentimizin qətiyyətli siyasəti və Azərbaycan Ordusunun şücaəti ilə ermənilərin hərbi istehkamlarını darmadağın etdiyimiz kimi "ideoloji istehkamlarını" da darmadağın edəcəyik. Qərbdəki və ya başqa yerlərdəki ermənipərəstlərin nəsə danışmasından, erməni lobbisinin pulu ilə seçilən senatorların, siyasət adamlarının addımlarından asılı olmayaraq, biz bunu etmişik və edəcəyik.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdəki məbədlər əsasən Qafqaz Albaniyasına aid kilsələrdir. Bu abidələrin erməniləşdirilməsini və dağıdılmasını internetdə yerləşdirilən videogörüntü və şəkillərdən asanlıqla görmək mümkündür. Hətta ermənilər işğaldan azad edilmiş ərazilərimizi tərk edərkən dünya ictimaiyyətinin gözü qarşısında məscidləri yandırmaqdan, bölgədəki dini-mədəni abidələri (Alban kilsələrindəki ikonaları və s.) talayaraq Ermənistana aparmaqdan belə çəkinməyiblər.

**- Ermənistanı işğal olunmuş bölgələrdə törətdikləri mədəni irsin məhv edilməsinə görə təzminat ödəməyə məcbur etmək üçün hər hansı cəhdlər edilirmi?**

- Azərbaycan tərəfi beynəlxalq təşkilatları əraziyə dəvət edib real ziyanı aktlaşdırıb təzminatın miqdarının hesablanması üçün müraciətlərin edilməsi istiqamətində artıq işlərə başlamışdır. Ermənistan maddi və ya alternativ təkliflər ilə Azərbaycana vurduğu ziyanı kompensasiya etməlidir.

Ermənilərin işğal olunmuş Azərbaycan torpaqlarında tarixi-dini abidələrimizə qarşı saxtakarlıq və cinayət əməlləri beynəlxalq səviyyədə təsbit olunmuş "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasının və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasının tələblərinə ziddir.

Haaqa hüququna əsasən mədəniyyət abidələrini və tibbi müəssisələri qorumaq üçün mümkün olan bütün tədbirlərin görülməsi istiqamətində fəaliyyətə başlanılıb. Bu tələblər digər beynəlxalq hüquqi sənəd olan Döyüş əməliyyatları zamanı tarixi və dini abidələrin qorunmasına dair Konvensiyanın protokollarında da əks olunub. Bu istiqamətdə də ermənilərin ciddi pozuntuları xüsusilə qeyd olunmalıdır. Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlərə görə reparasiya, restitusiya, təzminat və satisfaksiya məsuliyyəti yaranıb. Bu məsuliyyət həm maddi, həm də qeyri-maddi olmaqla müxtəlif formalara malikdir.

Artıq qeyd olunduğu kimi, ermənilər tərəfindən törədilmiş cinayətlər beynəlxalq cinayət hesab olunur və universal yurisdiksiyaya malikdirlər, bu o deməkdir ki, digər dövlətlər öz dövlətdaxili qanunvericiliyinə arxalanıb Azərbaycanda beynəlxalq cinayətləri törətmiş şəxsləri məsuliyyətə cəlb edib mühakimə edə bilər. 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistanın Azərbaycan ərazisində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə Dövlət Komissiyası yaradılıb.

**- Ermənistanın Azərbaycanın mədəni irsini məhv etməsi barədə beynəlxalq aləmi daha çox məlumatlandırmaq üçün hansı işlər görmək olar? Avropa Birliyi və beynəlxalq insan haqları təşkilatları niyə bu cinayətlərə susur?**

- Ermənistanın Azərbaycanın dini-mədəni irsini məhv etməsi ilə bağlı əldə olan faktlar barədə məlumatlar dəfələrlə ölkə başçısı tərəfindən ən yüksək kürsülərdən dünya ictimaiyyətinə çatdırılmış və çatdırılır. Həmçinin digər aidiyyəti qurumlar tərəfindən də səlahiyyətləri çərçivəsində zəruri tədbirlər görülür.

Təkcə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən beynəlxalq təşkilatlara müxtəlif səviyyələrdə müraciətlər olunub. Müxtəlif vaxtlarda ötən ilədək işğal altında olmuş torpaqlarımızdakı tarixi-dini abidələrimizin acınacaqlı vəziyyəti ilə bağlı foto sərgilər təşkil edilmiş, ingilis, alman, rus, ərəb dillərində kitablar dərc edilmişdir. Çoxsaylı tədbirlər keçirilmiş, Azərbaycan üçün həyati əhəmiyyət daşıyan bu məsələyə beynəlxalq ictimaiyyətin biganə qalmaması, işğalçı Ermənistan hakimiyyətinin işğal olunmuş Azərbaycan torpaqlarında tarixi saxtalaşdırmaq əməllərinin qarşısının alınmasında ədalətli mövqe nümayiş etdirməsinə dair gözləntilərimizin olduğu ifadə edilmişdir. Lakin təəssüf ki, hazırda bir sıra beynəlxalq təşkilatlar (xüsusən UNESCO) ermənilərin müsəlman abidələrini dağıtması faktına biganəlik nümayiş etdirirlər.

Cari ilin yanvar ayında ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfəri çərçivəsində Ağdam şəhərində ermənilərin 27 il ərzində törətdikləri vandalizm və müharibə cinayətlərinin şahidi olmuşdur. Eləcə də yanvar ayının 17-də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY), Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ), Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun nümayəndə heyəti işğaldan azad olunan Füzuli rayonuna səfər etmişdir. Nümayəndə heyətinin üzvləri şahidi olduqları erməni vəhşiliyinin dünya ictimaiyyəti tərəfindən pislənilməsi barədə çağırış etmişlər.

Bu gün Qərbin müəyyən dairələrində işğaldan azad olunmuş ərazilərdə xristian abidələri ilə bağlı narahatlıq ifadə olunur. Ancaq biz onlardan, cənab Prezidentin dediyi kimi, hər şeydən əvvəl, güzgüdə özlərinə baxmalarını istəyirik: *"Bu gün Xristianlığı əlində bayraq edib, özünü "Xristianlıq təəssübkeşi" kimi göstərən bəzi Qərb liderləri nədənsə unudurlar ki, Xristianlığın məhz ilk beşiklərindən biri Azərbaycan olub və buradakı qədim xristian abidələri də xristian Qafqaz Albaniyasından miras qalıb, onların ermənilərə heç bir aidiyyəti yoxdur. ... Bu gün, müharibə başa çatandan sonra artıq Qərb dairələrindən bəzi Qərb liderləri məsələ qaldırırlar ki, bəs, Azərbaycanın nəzarətinə keçən azad edilmiş torpaqlarda xristian məbədləri necə olacaq? Heç kim narahat olmasın, xüsusilə Qərb dövlətlərinin liderləri, hansılar ki, islamofob hissləri alovlandırırlar. Hansılar ki, İslam müqəddəslərinin təhqirlərinə göz yumurlar və hətta onları təhqir edənlərə bəraət qazandırırlar. Onların haqqı yoxdur bu barədə danışmağa, bu, birincisi. İkincisi, bu məntiqdən belə çıxır ki, ancaq müsəlman məscidlərini dağıtmaq olar? Bu ikili standartların, islamafobiyanın növbəti bariz təzahürüdür".*

Hesab edirik ki, bütün aidiyyəti beynəlxalq təşkilatlar tarixi-dini və mədəni abidələrin ermənilər tərəfindən dağıdılması ilə bağlı missiya həyata keçirməli və öz hesabatlarında bunu əks etdirməlidirlər. Heç şübhəsiz ki, Azərbaycan hökuməti bu missiya qruplarının işğaldan azad edilmiş ərazilərə səfər etməsinə maksimum imkan yaratmağa və bunun üçün bütün təhlükəsizlik tədbirlərini həyata keçirməyə hazırdır.

Prezident İlham Əliyev işğaldan azad edilmiş bütün yerlərə səfərlər edir və oradan dünya ictimaiyyətinə dağıdılmış, məhv edilmiş abidələrin ağır vəziyyətini şəxsən özü dünya ictimaiyyətinin diqqətinə çatdırır: *"Biz bütün dinlərin məbədlərini qoruyuruq və qoruyacağıq. Heç kimdə şübhə olmasın. Artıq bunu müstəqillik tarixi də göstərib, müstəqillikdən əvvəlki tarix də göstərib. Bütün dinlərin abidələri bizdə qorunur – kilsələr, sinaqoqlar, o cümlədən erməni kilsəsi Bakının mərkəzində dövlət tərəfindən qorunur, təmir edilib. Onlar nə ediblər? Mən Zəngilanda olarkən dağıdılmış, divarları qalmış məscidin önündəki çıxışımda Azərbaycan xalqına müraciət edərək dedim onlar nə ediblər, beynəlxalq təşkilatlara müraciət edərək dedim ki, gəlin baxın, hesabatı burada hazırlayın, öz kabinetlərinizdə yox. Ermənistan rəhbərliyinin və onun havadarlarının yalan məlumatlarına inanmayın, gəlin, öz gözlərinizlə baxın nə günə salıblar bizim məscidlərimizi. Sadəcə olaraq, onlar görüntü yaratmaq üçün Yuxarı Gövhərağa məscidini guya bir xarici şirkətlə birlikdə təmir etdiriblər. Bu təmir bizə lazım deyil. Bu təmir riyakarlıq rəmzidir, sadəcə olaraq, görüntü yaratmaqdır ki, guya Ermənistan rəhbərliyi məscidləri təmir etdirir. Əfsuslar olsun ki, bir ölkənin şirkəti bu çirkin əməllərdə onlarla şərik olub. Əlbəttə ki, Yuxarı Gövhərağa məscidinin təmiri qəbuledilməzdir. Çünki bizim icazəmiz olmadan, qanunsuz olaraq torpaqlarımıza gəlib, orada aylarla oturub, Ermənistanın kriminal xunta rejimi ilə əlbir olub bu məscidi guya təmir ediblər. Bizə belə təmir lazım deyil və heç kimi aldatmasın, heç kim bu yalana uymasın. Biz bütün məscidlərimizi yenidən təmir etdirəcəyik, yenidən bərpa edəcəyik və bütün dünya görməlidir ki, mənfur düşmən bizim müqəddəs məbədlərimizi nə günə salıb".*



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İllərin keşməkeşli sınaqlarından üzüağ çıxmış, bir əsrdə iki dəfə müstəqilliyini elan etməklə heç bir buxovu qəbul etmədiyini göstərmiş Azərbaycan xalqı bu müharibədə də mərdliyi və qəhrəmanlığı ilə bütün dünyada özündən söz etdirməyi bacardı. Əminliklə deyə bilərəm ki, bu məğrurluğun əsasında dayanan ən mühüm amil xalqımızın ədalətsizliklə qətiyyən razılaşmaması, özünün bütün sülhpərvər yönləri ilə yanaşı, hərbi qüdrətini məhz məqamında dəmir yumruğa çevrilməklə göstərməsi, dolayısı ilə "mövzu Vətəndirsə, qalan hər şey təfərrüatdır" deyə bilməsi durur. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq çox böyük bir tarix yazdılar. Ümumiyyətlə, torpağı vətən edən, onu müqəddəsləşdirən, özünü bu yolda qurban verən şəhidlərdir. Bu səbəbdən, onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzetinin 2020-ci ildəki ilk sayından etibarən şanlı zəfər tarixini yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.



**Abasov Ayaz Nizami oğlu**

Müqəddəs amallar uğrunda döyüşən, qorxunun nə olduğunu bilmədən Vətən və xalq yolunda canını fəda edən şəhidlərimizdən biri də Abasov Ayaz Nizami oğludur. O, 1998-ci il dekabrın 20-da Cəlilabad rayonunun Bəcirəvan kəndində dünyaya gəlib. Ayaz 2005-ci ildə Bəcirəvan kənd tam orta məktəbin 1-ci sinfinə daxil olub, 2016-cı ildə həmin məktəbin 11-ci sinfini bitirib. 2017-ci ilin yanvar ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Cəlilabad rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılıb. Daxili Qoşunların Sumqayıt şəhərində yerləşən "N" saylı hərbi hissəsində hərbi xidmətdə olub. Hərbi xidmətini uğurla başa vuran Ayazın Vətən sevgisi onu müddətdən artıq hərbi xidmətə başlamağa sövq edir. 2019-cu ildə sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla başa vuraraq Daxili Qoşunların Xüsusi Təyinatlı dəstəsində xidmətə başlayıb.

Qəhrəmanımızın vətənpərvərlik dəyərlərini mənimsəməsində göz açdığı mühitin və yaşadığı zamanın təsiri olsa da, o, daha çox, əslən Cəbrayıl rayonunun Çaxırlı kəndindən olan anasının Cəbrayılla bağlı xatirələri və tarixi reallıqları əks etdirən söhbətləri vasitəsi ilə Vətəninə bağlanıb. O, işğalda olan torpaqlarımızın, xüsusən də Cəbrayılın azad olacağı günü səbirsizliklə gözləyir, anasına o günün müjdəsini verməyi arzulayırdı. Bu səbəbdən 2020-ci il sentyabrın 27-də təcavüzkar Ermənistanın növbəti təxribatından sonra başlayan Vətən müharibəsində iştirak edən Ayaz başqalarına nisbətdə ikiqat sevincli idi. Müharibənin ilk günlərindən igidliyi ilə seçilən qəhrəmanımız Murov zirvəsinin düşməndən azad olunmasından sonra döyüşlərə cəbhənin cənub istiqamətində davam edib. O, anasının doğulub boya-başa çatdığı Cəbrayıl rayonunun işğaldan azad olunması uğrunda xüsusi fədakarlıq göstərərək uşaqlıqdan öz balaca qəlbində qocaman arzuya çevrilən Cəbrayıl şəhərini və ətraf kəndləri düşmən tapdağından azad edənlərdən olub. Ana yurdunun azadlığı eşqi ilə yaşayan gənc döyüşçümüz oktyabrın 3-də Cəbrayılda qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb, elə həmin gün Bəcirəvan kəndində uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Şəhidimiz subay idi. Ailədə 3 bacı, 1 qardaş olublar.

Adını tariximizin şanlı səhifəsinə yazan əsgər Abasov Ayaz Nizami oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.



**Abasov Elvin Səxavət oğlu**

Vətən uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmiş şəhid Abasov Elvin Səxavət oğlu 1993-cü il iyunun 17-də Şamaxı rayonunun Çarhan kəndində anadan olub. Elvin 1999-cu ildə Bakı şəhəri Xətai rayonu Elşad Yahyayev adına 56 saylı tam orta məktəbin 1-ci sinfinə gedib, 2010-cu ildə həmin məktəbin 11-ci sinfini bitirib. Elə həmin il də Bakı Dövlət Kolecinə daxil olub. Kollecdə oxuyarkən təhsili yarımçıq qoyaraq Vətənə borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollanmaq qərarına gəlib. 2013-cü ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Şamaxı rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılıb. Silahlı Qüvvələrin Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidməti ərzində komandirləri tərəfindən bir neçə dəfə fəxri fərmanla təltif olunub. 2015-ci ildə hərbi xidmətini başa vuraraq ailəsinin yanına qayıdıb. Yarıda saxladığı təhsilini davam etdirib.

Vətənin dar günü olarsa, könüllü olaraq döyüşlərə qatılacağını deyən Elvin 2020-ci ilin iyul döyüşlərindən sonra SHXÇDX-ya müraciət edib və müvafiq formada qeydiyyata alınıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başladıqdan sonra o, 29 sentyabrda ailəsinə xəbər vermədən könüllü olaraq döyüşlərə qatılıb. Əvvəlcə Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissədə olan qəhrəmanımız çox keçmədən cəbhənin Cəbrayıl istiqamətindən döyüşlərə başlayıb. Heç kimə sirr deyil ki, ideoloji hazırlıq, psixoloji dözümlülük yetərincə deyilsə, fiziki gücün, say çoxluğunun, dağıdıcı silahların heç bir xeyri yoxdur. Əsgərin mənəvi gücü, vətənpərvərliyi və ideoloji hazırlığı silahının vahiməsini daha güclü edir və düşmənin pərən-pərən salınmasına, darmadağın edilməsinə imkan verir. Elvin də ilk günlərdən yüksək mənəvi-psixoloji durumu və döyüş ruhu ilə seçilib mehribanlığı, gülərüzlülüyü ilə döyüşçülərimizin və komandirlərinin sevgisini qazanıb. Hər kəsin sevimlisinə çevrilən qəhrəmanımız döyüşlərdə də böyük şücaət göstərib. O, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının bir çox yaşayış məntəqəsinin işğaldan azad olunmasında xüsusi rəşadəti ilə yadda qalıb. Hər zaman irəli can atan Elvin yalnız oktyabrın 9-da ailəsinə zəng edib döyüşdə olduğunu deyib. Döyüşlərə başladıqdan 38 gün sonra - noyabrın 8-də Xocavənd rayonu ərazisində yaxınlığına düşən minaatan mərmisindən qəlpə yarası alaraq ağır yaralanıb. Əvvəlcə Füzuli daha sonra isə Ağcabədi Rayon Mərkəzi Xəstəxanasına aparılıb. Ağcabədidə əməliyyat olunan Elvin noyabrın 12-də Bakıya Silahlı Qüvvələrin Baş Klinik Hospitalına göndərilib. Orada 10 gün komada qalan igid döyüşçümüzün həyatını xilas etmək mümkün olmayıb. Elvin noyabrın 22-də Şamaxı Şəhidlər Xiyabanında uğrunda canından keçdiyi Vətən torpağına tapşırılıb.

Şəhidimiz subay idi, ailədə 3 qardaş olublar.

İgidliyi və cəsurluğu ilə fərqlənən əsgər Abasov Elvin Səxavət oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



**Abbasbəyli Həmid Cavanşir oğlu**

Abbasbəyli Həmid Cavanşir oğlu 1991-ci il noyabrın 17-də Bakı şəhərində ziyalı ailəsində anadan olub. 1998-ci ildə Binəqədi rayonu Famil İskəndərov adına 157 nömrəli tam orta məktəbin 1-ci sinfinə gedib, 2002-ci ilin 18 noyabrından isə təhsilinə Şəki şəhər 18 nömrəli tam orta məktəbdə davam edib. Uşaqlıqdan hərb sənətinə marağı olan qəhrəmanımız 2006-cı ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə qəbul olub. 2009-cu ildə liseyi uğurla bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. Həmid 4 xarici dil bilir, eyni zamanda fiziki hazırlığı ilə də seçilirdi. Hərbi təhsilini bitirib 1 il də Təlim Tədris Mərkəzində taqım komandiri kursunu keçib "leytenant" rütbəsi alandan sonra Silahlı Qüvvələrin Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissəsində taqım komandiri vəzifəsinə təyin olunub. O, Milli Qəhrəman Mübariz İbrahimovun adını daşıyan "Mübariz" postunda xidmət edib. 2016-cı ilin aprelində düşmən təxribatına cavab olaraq başlayan 4 günlük müharibədə şanlı ordumuzun igid döyüşçüləri arasında Həmid də var idi. O, öz mövqeyində düşmənə aman verməyərək xüsusi fədakarlıq göstərdiyi Aprel döyüşlərinin ardınca Xüsusi Təyinatlı Qüvvələrə cəlb olunub. Qrup komandiri olaraq əməliyyat şəraitini yaxşı bildiyi və geniş kəşfiyyat imkanlarına malik olduğu üçün erməni işğalındakı ərazilərə keçərək düşmən mövqelərini müşahidə edib heç bir iz buraxmadan geri dönürdü. Ona verilən tapşırıqların öhdəsindən yüksək səviyyədə gəlirdi. Həmidin bu cəsarəti onunla birgə xidmət edənlər üçün də nümunəyə çevrilir, onlara cəsarət verirdi. Qəhrəman zabitimiz bir neçə dəfə Xüsusi Təyinatlıların Türkiyə və Çində keçirilən kurslarında iştirak edərək ölkəmizə birincilik gətirib. Fəxri fərmanlara layiq görülüb.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi munasibəti ilə 2018-ci il iyunun 26-da Azadlıq meydanında keçirilən hərbi paradda Xüsusi Təyinatlı Qüvvələrin tərkibində çıxış edib. O, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" medalına layiq görülüb. 2020-ci il iyun ayının 24-də isə Moskva şəhərindəki "Qırmızı meydan"da Böyük Vətən müharibəsində qələbənin 75 illiyinə həsr edilmiş irimiqyaslı paradda 75 hərbçi ilə Azərbaycan Ordusunu təmsil edib və "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945–2020)" medalı ilə təltif edilib.

2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini pozub Azərbaycana qarşı hücum etməsi və ordumuzun əsk-hücuma keçdiyi hərbi əməliyyatlarda Həmidin döyüş yolu cəbhənin Füzuli istiqamətində başlayıb. Qəhrəmanımız Cəbrayıl və Füzuli şəhərinin, Hadrut qəsəbəsinin, eləcə də ətraf kəndlərin işğaldan azad olunması, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində igidlik və mərdlik nümunəsi göstərib. Oktyabrın 11-də ayağından yaralansa da, döyüşə davam edib. Oktyabrın 19-dan 20-nə keçən keçən gecə Məngələn Ata yüksəkliyi uğrunda gedən döyüşlər zamanı xüsusi fədakarlığı ilə seçilib. Ancaq döyüşdən sağ çıxan qəhrəmanımız yaralı düşmənin "kor" gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalıb. O, oktyabrın 24-də İkinci Fəxri Xiyabanda Vətən torpağına tapşırılıb.

Şəhidimiz subay idi, ailədə iki qardaş olublar.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə baş leytenant Abbasbəyli Həmid Cavanşir oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları, eləcə də "Qarabağ" ordeni ilə təltif edilib.

**Hazırladı:** Ramil Baxşəliyev

# BÖLGƏLƏRDƏ XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİ YAD EDİLİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) bölgə şöbələri Xocalı soyqırımının 29-cu ildönümü ilə əlaqədar onlayn formatda anım tədbirləri keçiriblər. Bu qəbildən olan tədbirlər:

23 fevral - DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin Quba Regional Mərkəzi, Quba Mərkəzləşdirilmiş Kitabxana Sistemi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Quba bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə “Xocalı, qısasın alındı!” mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı Rayon İcra Hakimiyyəti (RİH) və Sabirabad Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə “Xocalı Soyqırımını Unutmayaq” mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və QMİ-nin birgə təşkilatçılığı ilə “Xocalı soyqırımı XX əsrin faciəsidir” mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir RİH, Kürdəmir Regional Mədəniyyət İdarəsi və Kürdəmir rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə;

24 fevral – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilaçılığı ilə; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə “Xocalı Soyqırımı” mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və QMİ-nin birgə təşkilatçılığı ilə; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Neftçala rayonunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə “Xocalı fəryadı” mövzusunda baş tutmuşdur.

Dövlət Komitəsinin və yerli dövlət qurumlarının əməkdaşlarının, təhsil, mədəniyyət işçiləri, QMİ-nin



bölgələrdə fəaliyyət göstərən səlahiyyətli nümayəndələri, din xadimləri, dindarlar və gənclərin qatıldığı videokonfranslar zamanı əvvəlcə Xocalı soyqırımı qurbanlarının və ərazi bütövlüyümüz uğrunda qəhrəmancasına canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxışlar zamanı 1992-ci il fevral ayının 26-da mənfur qonşularımız ermənilər tərəfindən törədilmiş Xocalı soyqırımı haqqında danışılıb. Bildirilib ki, Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib, düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb, 1275 nəfər isə əsir götürülüb.

Vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun təşəbbüsü əsasında 1994-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət verib, 26 fevral tarixi “Xocalı soyqırımı günü” elan olunub və soyqırımı haqqında həqiqətlər dünya dövlətlərinə, beynəlxalq ictimaiyyətə çatdırılıb. Soyqırımı faktlarının və erməni vəhşiliklərinin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Xocalıya ədalət!” beynəlxalq kampaniyası xüsusi rol oynayıb.

Natiqlər müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Vətən müharibəsində tarixi qələbə qazandığını, torpaqlarımızın düşmən tapdağından azad edildiyini, soyqırımı qurbanları və şəhidlərimizin qisasının alındığını qeyd ediblər.

Həmçinin fevralın 24-də Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsi və QMİ-nin Quba bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə Quba, Qusar və Xaçmaz rayonlarında fəaliyyət göstərən bir qrup din xadimi DQİDK əməkdaşları ilə birlikdə Quba Şəhidlər Xiyabanını ziyarət edib, Xocalı qurbanlarının xatirəsinə ucaldılmış “Ana fəryadı” abidəsinin önünə gül dəstələri qoyublar.

25 fevral – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Şamaxı, Ağsu və Qobustan Rayon İcra Hakimiyyətləri (RİH) və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Şamaxı bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə Xocalı faciəsinə həsr olunmuş onlayn formatda regional konfrans, Şəki Şəhər İcra Hakimiyyəti, DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və Şəki şəhər Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə fevralın 25-də "Qan yaddaşımız Xocalı" mövzusunda videokonfrans formatında keçirilib.




## Xocalı soyqırımı Laçındakı "Ağoğlan" məbədində yad edilib

Fevralın 24-də Laçın rayonu ərazisində yerləşən qədim alban məbədi “Ağoğlan” monastırında Xocalı qurbanlarının anım mərasimi keçirilib.

APA-nın əməkdaşının Laçından verdiyi məlumatına görə, mərasimdə Alban-udi xristian icmasının üzvləri, xarici və yerli mətbuat nümayəndələri iştirak ediblər.

Öncə icma sədri Robert Mobili Xocalı qurbanlarının ruhuna kilsədə şam yandırıb. Sonra R. Mobili və icmanın sədr müavini Rafik Danakari, habelə Alban-udi xristian icmasının üzvləri şəhidlərin və Xocalı qurbanlarının ruhuna dualar oxuyublar.

Daha sonra jurnalistlərə açıqlama verən R.Mobili bildirib ki, bu gün ilahi ədalətə şahidlik edirlər: “O ilahi ədalət ki, başda Azərbaycan Prezidenti olmaqla müzəffər Azərbaycan Ordusu bərpa etdi. Azərbaycan əsgəri təkcə torpaqları deyil, dini məbədləri də əsirlikdən azad etdi. Yaşasın Azərbaycan, yaşasın ordumuz, yaşasın Prezidentimiz”.



“Ağoğlan” məbədinin əhəmiyyətindən danışan R.Mobili vurğulayıb ki, Laçında bir çox alban kilsəsi var: “Ağoğlan” məbədi isə Laçın üçün, Qarabağ üçün bir mirvaridir. Nəhayət, tarixi həqiqəti bərpa elədik”.

R.Mobili bu gün Alban-udi xristian icması üçün də əlamətdar gün olduğunu qeyd edib: “Biz bu gün kilsədə erməni saxtakarlıqlarının da şahidi olduq. Nə qədər daşın üstündə erməni xaçları gördük. Kilsədə bu qədər element, simvol olmamalıdır. Bura gələn hər icma üzvü, hər bir azərbaycanlı üçün bu yer doğmadır. Mən həyəcan içindəyəm. İlk dəfədir, Laçın rayonuna gəlirəm, VI əsrdə inşa edilən qədim alban kilsəsini ziyarət edirəm. Bu abidə 30 il yox, mən deyərdim, 200 ilə yaxındır, işğaldadır. Ermənilər bu kilsəni də saxtalaşdırıblar. Axır ki, tarixi ədalət bərpa olundu və biz gəlib məbəddə ibadət elədik. Şəhidlərimizin qarısında baş əyirik. Xocalı qurbanlarının ruhları qarşısında baş əyirik. Xocalı soyqırımı heç vaxt yaddaşdan silinməyəcək. Bu gün bizim bura ilk addımlarımızdır. Mən inanıram ki, gələcəkdə işğaldan azad edilmiş torpaqlardakı məbədlər, kilsələr bərpa olunacaq”.

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2018

# MANAMA



Dünyanın mikrodövlətlərindən biri də Bəhreyn Krallığıdır. «Daulat əl-Bəhreyn» iki dəniz mənasını verən Bəhreynin ümumi sahəsi 765 km²-dir və əhalisi təxminən 1.7 milyon nəfərdir. O, dünyanın ərazisinə görə 187-ci, əhalisinə görə isə 152-ci ölkəsidir. Fars körfəsizində, eyni adlanan arxipelaqda yerləşən ölkə 30-dan çox adadan ibarətdir. Bu arxipelaqın təxminən 83%-ni Bəhreyn adlanan ada təşkil edir. Bu adanın uzunluğu 50, eni isə 16 km-dir. Nisbətən digər iri adaları Mühərrək, Sitra, Umm-Nəsən, Umm-əs-Sübhan və Ciddədir. Bəhreyn adası Mühərrək və Sitra adaları ilə torpaq bəndlər vasitəsilə birləşdirilmişdir. Bəhreyn Qətər yarımadası ilə Səudiyyə Ərəbistanının şimal-şərq sahilləri arasında yerləşir. Ölkəni Səudiyyə Ərəbistanı ilə 1986-cı ildə salınan 25 km-lik Kral Fəhd körpüsü birləşdirir. Əhalisinin əksəriyyətini ərəblər təşkil edir və rəsmi dili ərəb dilidir. Ən çox istifadə olunan ikinci dil isə ingilis dilidir. Bəhreynin rəsmi dini İslamdır. Əhalisinin 90%-dən çoxu müsəlmanlardır. Ölkənin rəsmi valyutası isə Bəhreyn dinarıdır.

Bəhreyn haqqında ilk yazılı məlumatlar e.ə III minilliyə aiddir. Axtarışlar zamanı bu ərazilərdə Assur, Babil, Şumer və s. qədim sivilizasiyalara aid mədəni qalıqlar aşkar edilmişdir. Arxipelaqın əlverişli coğrafi mövqeyi, bu ərazilərə müstəmləkəçi dövlətləri cəlb etmişdir. Tarixin müxtəlif dövrlərində Dilmun, Sasani, Yunan, Ərəb Xilafəti, Qərmətilər, Səfəvi, Osmanlı, Portuqaliya tərəfindən idarə olunan Bəhreyn 1820-1971-ci illərdə İngiltərə protektoratlığında olmuşdur. 1971-ci ilin avqustun 15-də müstəqilliyini elan edərək Böyük Britaniyadan ayrılmış və həmin ilin dekabrın 16-da rəsmən müstəqil olmuşdur. Bəhreyndə 16 dekabr müstəqillik günü kimi qeyd olunur.

Bəhreyn konstitusiyalı monarxiyadır. Ölkəni 1782-ci ildən əl-Xəlifə sülaləsi idarə edir. Kral hökuməti təyin etmək, orduya və Yüksək Məhkəmə Şurasına rəhbərlik etmək, parlamentin yuxarı palatasını təyin etmək və seçilmiş aşağı palatasını buraxmaq kimi geniş icra səlahiyyətlərinə malikdir. Bəhreyndə ilk konstitusiya 1973-cü ilin iyulunda qəbul olunmuşdur. Həmin ilin dekabrında ilk parlament seçkiləri baş vermişdir. 1975-ci il avqustun 26-da əmir bu parlamenti buraxmışdır. 2001-ci ildə keçirilmiş referendumda dövlətin yeni konstitusiyası qəbul olunmuşdur. Bu konstitusiyaya görə, 1975-ci ildə buraxılmış parlamentin fəaliyyəti yenidən bərpa olunmuşdur.

Digər ərəb dövlətləri kimi, Bəhreynin də iqtisadiyyatının əsas hissəsini neft ixracı təşkil edir. Bununla yanaşı, ölkədə azad iqtisadi zonanın yaradılması ölkəyə çoxlu sayda xarici investorları cəlb etmişdir. BMT-nin Qərbi Asiya üçün İqtisadi və Sosial Komissiyasının 2006-cı il yanvar hesabatına görə, Bəhreyn ərəb dünyasında ən sürətlə böyüyən iqtisadiyyata sahib olan ölkə seçilmişdir. Son dövrlərdə Bəhreyndə neft və bank sektoru ilə yanaşı turizm də inkişaf etmişdir. Buna ən böyük səbəb isə "Formula-1" avtomobil yarışları üzrə dünya çempionatının mərhələlərindən birinin Bəhreyndə təşkil edilməsidir. Bəhreyn Qran-prisi 2004-cü ildən keçirilir. Turistləri cəlb edən daha bir səbəb isə krallığın müasir ərəb mədəniyyətini və beş min illik sivilizasiyanın arxeoloji irsini özündə birləşdirməsidir. Burada dünyaca məşhur olan bir çox tarixi memarlıq abidələri UNESCO tərəfindən mədəni irs siyahısına daxil edilmişdir.

Bəhreyn Krallığının paytaxtı və ən böyük şəhəri Manamadır. Bu şəhərdə təxminən 664 min insan yayayır. Manama regionun ən önəmli iqtisadi mərkəzlərindən biridir. Şəhər ölkənin şimal-şərqində yerləşir. Adı ərəbcədən "istirahət yeri" və ya "xəyalların yeri" mənasını verir. Şəhər haqqında ilk məlumatlara XIV əsr İslam qaynaqlarında rast gəlinir. Bu gün, əksər Körfəz şəhərləri kimi, Manama da zəngin müasir binalarla bəzədilib. Hökumət binalarının, bir çox dünyaca məşhur şirkətlərin ofis binalarının, banklarin, iri ticarət mərkəzlərinin olmasna baxmayaraq, Manama öz tarixiliyini qoruyub saxlayır. 1958-ci ildən şəhərin sərbəst liman elan edilməsi onun inkişafına xüsusi təkan verdi. Bu gün regionun əsas limanlarından biri də Manamadadır.

Paytaxtda tarixin bir çox dönəminə şahidlik etmiş abidələr mövcuddur. Bunlardan biri dünyaca məşhur olan Bəhreyn Qalasıdır. Portuqaliya qalası olaraq da bilinən qalada 1954-cü ildən bəri arxeoloji qazıntılar aparılır. Qazıntılar zamanı e.ə. 2300-cü ildən XVIII əsrə qədər ərazidə yaşayan sakinlərə məxsus əşyalar aşkarlanmışdır. Dilmun sivilizasiyasının da qalıqları olan bu qala 2005-ci ildə UNESCO-nun mədəni irs siyahısına daxil edilmişdir. Qala Bəhreyn adasında, şimal dəniz sahilindədir.

Manamanın dünyaca daha bir məşhur yeri əl-Fateh Məscididir. Məscid 6500 m² ərazini əhatə edir və dünyanın ən böyük məscidlərindən biridir. Məsciddə eyni vaxtda 7.000-dən çox insan ibadət edə bilir. Məscid mərhum Şeyx İsa bin Salman əl-Xəlifə tərəfindən 1987-ci ildə tikilib və Əhməd əl-Fatehin adını daşıyır. Məscid Bəhreynin ən böyük ibadət yeridir.

Adanın ilk sakinlərinin qalıqlarından tutmuş müxtəlif dövrlərə məxsus tarixi eksponatlar Bəhreyn Milli Muzeyində bu günə qədər qorunub saxlanılır. Manamada yerləşən muzey Bəhreynin ən böyük və ən qədim muzeyidir. Bəhreyn Milli Teatrına bitişik olan muzey 15 dekabr 1988-ci ildə açılıb. Ölkənin ən populyar turistik yeri sayılan muzey kompleksi 30 milyon dollara inşa edilib və ümumi sahəsi 27.800 m²-dir. Muzey səhər saat 10-dan axşam 6-ya qədər açıq olur. Kompleksin hər dövrə aid bir neçə zal mövcuddur ki, bu zalda Bəhreynin Dilmun, Yunan, Fars, Ərəb Xilafəti və müasir dövr aid tarixi eksponatlar sərgilənir.

Bəhreyndə ilk məscid olduğu güman edilən Xamis Məscidi Əməvi xəlifəsi II Ömərin dövründə tikmişdir. Manamada yerləşən bu məscid tikilməsi haqqında tam dəqiq məlumat olmasa da bir çox mənbələrdə bünövrəsinin 692-ci ildə qoyulduğu deyilir. Bu qədim İslam abidəsi müxtəlif zamanlarda bərpa edilib.

Bəhreynin ən əhəmiyyətli tarixi binalarından biri Mirvari Dalğıc Muzeyidir. Bəhreyn Məhkəmələrinin ilk inzibati binası olan bu bina 18 oktyabr 1937-ci ildə açılmış, 1984-cü ildən isə muzey kimi fəaliyyət göstərir.

Bəhreynin ən məşhur təhsil ocaqları da Manamada yerləşir. Burada Ahlia Universiteti, Tətbiqi Elmlər Universiteti, Ərəb Açıq Universiteti, Ərəb Körfəz Universiteti, Bəhreyn Bankçılıq və Maliyyə İnstitutu, Səhiyyə və İdman Elmləri Kolleci kimi universitet və kolleclər fəaliyyət göstərir.

Manama 2018-ci ildə İslam Mədəniyyətinin paytaxtı seçilmişdir.

**Hazırladı:** Tural VƏLİZADƏ

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuraya seçkilər keçiriləcək

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuraya namizədlərin irəli sürülməsi və onların qeydiyyatı başa çatıb.

"İctimai Şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"yə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın yeni tərkibdə formalaşdırılması üçün birgə yığıncaq (səsvermə) keçiriləcək.

Birgə yığıncaqda (səsvermə) iştirak etmək istəyən vətəndaş cəmiyyəti institutları 05.03.2021-ci il tarixinədək Dövlət Komitəsinə müraciət edə bilərlər. Sənədlər Dövlət Komitəsinin elektron poçt ünvanına (dk-public@scwra.gov.az) göndərilməlidir.

Məlumat üçün bildirək ki, təmsilçilərinin (hər bir vətəndaş cəmiyyəti institutundan bir nümayəndə) səsvermədə iştirak etməsini istəyən vətəndaş cəmiyyəti institutları həmin şəxslər barədə Komitə yanında İctimai Şuranın Seçki Komissiyasına aşağıdakı sənədləri göstərməklə müraciət edə bilərlər:

-səsvermədə iştirak edəcək nümayəndənin şəxsiyyət vəsiqəsinin surəti;

-vətəndaş cəmiyyəti institutunu təmsil etdiyini təsdiqləyən sənədin surəti;

-təmsil etdiyi vətəndaş cəmiyyəti institunun dövlət qeydiyyatı ilə bağlı sənədin surəti;

-səsvermədə iştirak edəcək nümayəndənin əlaqə vasitəsi.

Qeyd edək ki, İctimai Şura üzvlüyünə aşağıda göstərilən şəxslərin namizədlikləri qeydiyyata alınıb:

1. Cəfərova Aynurə Asim qızı, "Sülhə Çağırış Tolerantlığa Dəstək" İctimai Birliyinin sədri;
2. Çobanzadə Elçin Əlişah oğlu, "Gənclərin Mədəniyyətlərarası Əməkdaşlıq liqası" İctimai Birliyinin sədri;
3. Mehdiyev Nurəddin Səftər oğlu, "Bizim nəsil" Gənclərin Regional İnkişaf Assosasiyası İctimai Birliyinin sədri;
4. Əfəndiyev Nizami Həmzət oğlu, Gəncliyə Yardım Fondu Təhsil şöbəsinin məsləhətçisi;
5. Məmmədova Nüşabə Ələsgər qızı, "Beynəlxalq Dialoq və İnkişaf Alyansı" İctimai Birliyinin sədri;
6. Zeyni Rauf Xurşud oğlu, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti;
7. Alızadə Sevinc Əsgərxan qızı, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri;
8. Əndəlifov Şükür Sahib oğlu, Türkdilli Dövlətlərlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin nəzdində Tələbə yataqxanasının müdiri;
9. Talışınski Elvin Bəhruz oğlu, "Elin Səsi" Milli-Mənəvi Dəyərlərimizin Qorunması İctimai Birliyinin sədri;
10. Bayramov Çingiz İbrahim oğlu, "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyinin sədri;
11. Sadıqlı Vasif İbrahim oğlu, "Din və Demokratiya Mərkəzi" İctimai Birliyinin sədri.

DQİDK yanında İctimai Şuraya seçkilər isə mart ayının 15-də saat 11:00-da Dövlət Komitəsinin inzibati binasında keçiriləcək.

# "Xristian irsimizi tanıyaq" layihəsi davam edir

Mədəniyyət Nazirliyinin "Xristian irsimizi tanıyaq" adlı layihəsi davam edir. Layihə çərçivəsində Azərbaycan ərazisində xristian dininə aid olan və dövlət tərəfindən qorunan məbədlər, kilsələr və ibadətgahlara dair qısa videoçarxlar təqdim olunur.

Layihənin budəfəki materialı "Aleksandr Nevski" pravoslav kilsəsinə həsr edilib.

Məbəd 1887-ci ildə Gəncə şəhərində həm yerli pravoslavların, həm də müsəlmanların xeyriyyə vəsaiti hesabına ucaldılıb. Kilsənin binası kərpicdən Bizans memarlıq üslubunda tikilib. Kilsə 1931-ci ildə Sovet hökuməti tərəfindən bağlanıb.

1935-1938-ci illərdə bina muzey binası kimi istifadə edilib. Daha sonra muzey başqa bir binaya (məscidə) köçürülüb və kafedral anbar kimi istifadə edilib.

1946-cı ildə məbəd Rus Pravoslav kilsəsinə qaytarılıb. Azərbaycandakı mövcud pravoslav kilsələri arasında ən qədimlərindən biri hesab edilən bu kilsənin əski interyerindən müxtəlif ikonalar günümüzə qədər gəlib çıxıb. Bunlar arasında müqəddəs Aleksandr Nevski və müqəddəs Mariya Maqdalena adına ikonaları xüsusilə qeyd etmək lazımdır.

2017-ci ildə kilsə tikilməsinin 130 illiyi münasibətilə təmir olunub.

***

Layihə çərçivəsində daha bir təqdimat isə Alman Lüteran kilsəsinə həsr edilib.

1909-cu ildə almanlar tərəfindən inşa olunan Lüteran kilsəsi Azərbaycanın Şəmkir şəhərində yerləşir. Məkan 32 il kilsə, daha sonra isə mədəniyyət və müəllimlər evi, eləcə də tarixdiyarşünaslıq muzeyi kimi fəaliyyət göstərib.

Lüteran kilsəsinin bərpası və əsaslı təmiri Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə 2012-ci ildə həyata keçirilib və abidə kimi qorunur.

# Peyğəmbər dövrünə aid 500 artefakt nümayiş etdirilib



Səudiyyə Ərəbistanının Mədinə şəhərindəki Peyğəmbərin Həyatı və İslam Sivilizasiyası Muzeyində Məhəmməd peyğəmbərin (s) dövrünə aid 500 artefaktdan ibarət sərgi açılıb.

Müsəlman Dünyası Liqasının baş katibi Şeyx Məhəmməd bin İssa və Mədinədəki Böyük Məscidin imamı Şeyx Salih bin Hümeyidin də iştirak etdiyi açılış mərasimində İslamın insanlar arasında ədalət və dözümlülük dini olduğu qeyd edilib.

Muzeyin 25 pavilyonunda təşkil edilmiş sərgidə Məhəmməd peyğəmbərin (s) həyatının Məkkə və Mədinə dövrlərinə dair qiymətli əşyalar və əlyazmalar, Qurani-Kərimin ilkin nüsxələri, habelə Məkkə və Mədinənin qədim binaları olan maketlər nümayiş etdirilib. Muzeyin ayrıca bir mərtəbəsində yerləşən kino zalında isə Peyğəmbərin həyatı haqqında lentə alınmış sənədli və bədii filmlər göstərilib.

# Müsəlman ölkələrində inkişaf, sabitlik və terrorizmə qarşı mübarizə məsələləri müzakirə olunub



Ər-Riyadda İslam Ölkələri Antiterror Hərbi Koalisiyasının təşkilatçılığı ilə "İslam İnkişaf Bankının (İİB) İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrdə sabitliyin təmin edilməsində rolu" mövzusunda simpozium keçirilib.

Tədbirdə çıxış edən koalisiyanın baş katibi, general-mayor Məhəmməd bin Səid əl-Məcidi sosial-iqtisadi sabitliyin, əhalinin rifahının terrorizmlə mübarizədə mühüm amil olduğunu vurğulayıb.

Onun sözlərinə görə, hazırda qeyri-sabitliyin hökm sürdüyü müsəlman ölkələrində terror təşkilatları daha çox işsiz və sosial rifahı olmayanları öz sıralarına cəlb edirlər. Bu baxımdan iqtisadi cəhətdən güclü ölkələr və İİB həmin ölkələrdə sosial rifahın yaxşılaşdırılması və yeni iş yerlərinin açılması üzrə layihələrə dəstək verməlidir.

İİB-nin prezidenti Bəndər bin Məhəmməd Həcər qeyd edib ki, müsəlman ölkələrində sabitliyin, inkişafın təmini və terrorizmlə mübarizə məsələləri sıx əlaqəlidir. O əlavə edib ki, insanlar üçün layiqli həyat şəraitinin yaradılması, cəmiyyətin və dövlətin gələcəyi naminə iqtisadi tərəqqi əldə edilməsi İslam dünyasında sabitliyin bərqərar olmasına mühüm töhfə olar.

Simpozium iştirakçılarına İİB-nin müsəlman ölkələrində sosial-iqtisadi sahədə həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verilib.

# Misir BMT Sülhyaratma Komissiyasının sədri seçilib



Misir ilk dəfə olaraq BMT Katibliyi yanında Sülhyaratma Komissiyasının sədri seçilib. Qahirə bu vəzifəni əvvəlki sədr Kanadadan təhvil alacaq.

Misir diplomatiyasının tarixində bu əlamətdar hadisə ilə bağlı məlumatı ölkənin BMT-dəki daimi nümayəndəsi Məhəmməd İdris yayıb. O qeyd edib ki, komissiyanın 15-ci sessiyasında qəbul edilən bu qərar dünya ictimaiyyətinin rəsmi Qahirənin sülhyaratma missiyasına verdiyi yüksək qiymətdir.

Sessiyada diqqətə çatdırılıb ki, son illər Misir Afrika və Yaxın Şərqdə, xüsusən Liviya və Fələstində münaqişələrin həllinə, sülhün və sabitliyin bərqərar olunmasına mühüm töhfələr verib. Komissiyanın münaqişə ocaqları olan 15 ölkənin 12-si məhz Afrikada yerləşir. 2021-ci ildə Misirin rəhbərliyi ilə onların həlli istiqamətində yeni plan hazırlanacaq.

M.İdris vurğulayıb ki, komissiyanın sədri olacaq Misir regional və subregional təşkilatlar, beynəlxalq maliyyə institutları ilə sıx əməkdaşlıq şəraitində pandemiya dövründə sülhyaratma missiyasını gücləndirməyə səy göstərəcək.

# QMİ sədri BMT-nin Sivilizasiyalar Alyansının keçirdiyi tədbirdə iştirak edib



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Birləşmiş Millətlər Təşkilatının (BMT) Sivilizasiyalar Alyansının Ali Nümayəndəliyinin Dünya Dinlərarası Harmoniya Həftəsi çərçivəsində keçirdiyi "Beynəlxalq İnsan Qardaşlığı Günü: Gələcəyə Bir Yol" adlı xüsusi tədbirdə iştirak edib.

BMT Sivilizasiyalar Alyansının, Misirin və Birləşmiş Ərəb Əmirliklərinin BMT-dəki daimi nümayəndəliklərinin və İnsan Qardaşlığı Ali Komitəsinin təşkilatçılığı ilə keçirilən tədbir BMT-nin baş katibi Antonio Quterreşin müraciəti ilə açılıb.

Mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına xidmət edən tədbir "Dünyada Sülh və Birgə Yaşayış üçün İnsan Qardaşlığı Sənədi"ndəki prinsip və dəyərləri təşviq edən, onun davamlı sülhə aparan yol kimi tətbiqinə dair ən yaxşı təcrübələri araşdırmaq imkanı verən interaktiv panel formatında öz işini davam etdirib.

Videokonfransda Roma Papası I Fransisk ilə əl-Əzhər Şeyxi Əhməd ət-Tayyibin tədbir iştirakçılarına müraciətləri səsləndirilib. Öz müraciətində Papa xalqların qardaşlığını "bu əsrin çağırışı" adlandırıb. "Ya biz qardaş olacağıq, ya da bir-birimizi məhv edəcəyik ... qardaşsız bir dünya düşmən dünyasıdır... Qardaşlıq kömək əlini uzatmaq istəyi deməkdir. Qardaşlıq hörmət deməkdir. Qardaşlıq açıq ürəklə dinləmək deməkdir. Qardaşlıq öz inancımızı qorumaq deməkdir, çünki öz inancımızı güzəştə getməliyiksə, həqiqi qardaşlıqdan söhbət gedə bilməz", - deyə pontifik vurğulayıb.

Şeyxülislam Allahşükür Paşazadə də tədbirdə çıxış edərək BMT qurumlarının dini təşkilatlarla birgə dinlərarası harmoniya və xoşməramlılıq mesajlarını dünya miqyasında bəyan etməsini yüksək dəyərləndirib, BMT-nin 4 fevral tarixinin Beynəlxalq İnsan Qardaşlığı Günü kimi qeyd olunması haqqında qərarını alqışlayıb. Zati-müqəddəsləri Papa Fransisk ilə əl-Əzhər Şeyxi Əhməd ət-Tayyib həzrətlərinin Əbu-Dabidə 2019-cu ildə "Dünyada Sülh və Birgə Yaşayış üçün İnsan Qardaşlığı Sənədi"ni imzalamasını tarixi əhəmiyyətli hadisə kimi dəyərləndirən Şeyxülislam bu sənəddən irəli gələn məqamların həyata keçirilməsinə nümunə kimi 2019-cu il Dünya Dini Liderlərinin II Bakı Sammitinin Yekun Sənədinə bununla bağlı xüsusi bəndin daxil edilməsini qeyd edib. QMİ sədri Azərbaycan Prezidenti İlham Əliyevin bütün tədbir iştirakçılarına, xüsusilə, Alyansın yüksək nümayəndəsi Moratinosa salamlarını çatdırıb, ölkəmizin dinlərarası və sivilizasiyalararası dialoq prosesinin fəal təşəbbüskarı və iştirakçısı olduğunu diqqətə çatdırıb.

# Şri-Lanka müsəlmanlarından BMT-yə şikayət

Britaniyadakı bir qrup müsəlman ailəsi Şri-Lankadakı əqidə qardaşlarının adından koronavirusdan ölən yaxınlarının məcburi kremasiyası ilə əlaqədar BMT-nin İnsan Haqları Komitəsinə şikayət ediblər. Onlar etiqad azadlıqlarının pozulduğunu, doğmalarının "ifadə olunmayacaq dərəcədə əzab çəkdiklərini" və koronavirus qurbanlarının ənənəvi dəfn edilməsinin təhlükələri barədə dəlillərin olmamasını əsas gətiriblər. Bu barədə "The Guardian" məlumat verib.

İddia olunur ki, beynəlxalq və yerli tibb mütəxəssislərinin ölülərdən yoluxma təhlükəsinə dair tutarlı bir dəlilin olmadığına baxmayaraq, Şri-Lanka rəhbərliyi yüzlərlə koronavirus qurbanını kremasiya edir.

Səkkiz iddiaçıdan ibarət olan bir qrup məhkəmədə pandemiya ilə mübarizədə "tez-tez əsas hüquqları pozaraq çətin qərarlar qəbul etməli" olduqlarını etiraf edib. Bununla belə, hökumət ailələrin istəklərinə və dini inanclarına məhəl qoymadan məcburi kremasiya həyata keçirirlər.

BMT-nin xüsusi məruzəçiləri, Şri-Lanka hökumətinə iki dəfə müraciət edərək koronavirusdan dünyasını dəyişən müsəlmanların yaxınlarının istəklərinə və dini hökmlərinə hörmət göstərməyə çağırıblar. Əks təqdirdə, getdikcə daha çox müsəlman ölüm hallarını qeydiyyatdan keçirməkdən çəkinəcək, cəsədləri gizlədəcək və öz adət-ənənələrinə uyğun olaraq gizlicə dəfn edəcəklər. Yanvar ayında Şri-Lanka ekspert komitəsi karantin qaydalarına uyğun olaraq ənənəvi dəfnlərin keçirilməsinin məqbul olduğunu qəbul etsə də, hökumət hələ də buna icazə vermir.

Hüquq müdafiəçiləri buddist sinhal hakimiyyətini Şri-Lanka əhalisinin 9% -ni təşkil edən müsəlman icmasını təqib etməkdə günahlandırır. Vətəndaş və siyasi hüquqlarla bağlı beynəlxalq pakt imzalayan Şri-Lanka hakimiyyəti nəzəri olaraq İnsan Haqları Komitəsinin qərarlarına əməl etməlidirlər.

# İngiltərədə sevgi tanrısı Kupidonun heykəli tapılıb



Arxeoloqlar İngiltərənin cənub-qərbində qədim Roma tanrısı Kupidonun heykəlciyini tapıblar. Smitsonian İnstitutunun veb-saytının verdiyi məlumata görə, 2000 illik kiçik heykəl keçmiş Roma yolunda aşkarlanıb.

Metti Eyri öz müsahibəsində bildirib ki, inşaatdan əvvəl ərazini tədqiq edən "Highways England" komandası bu kiçik heykəllə yanaşı, yay şəklində bir broş və insan skeleti tapıblar. Bütün bunlar Qlosterşir qraflığındakı Birdlip şəhərinin hüdudlarında aşkarlanıb.

Mütəxəssislərin fikrincə, bu nadir və cəlbedici tapıntı bir vaxtlar bu yolboyu yaşayan kiçik Roma icmasının həyat tərzi və inancları barədə məlumat verə bilər. Yeni tapılan heykəlcik bərk bürüncdən hazırlanmışdır və əlində alovlu bir məşəl tutan qanadlı sevgi tanrısını təsvir edir. Heykəl ağac kömürünün qalıqları arasında tapılmışdır. Ona görə də ehtimal olunur ki, o, tanrılara qurban olaraq mərasim tonqalına atılmışdır.

Ərazidə aşkarlanmış insan skeleti isə daha müəmmalıdır. Belə ki, xristian adətinə görə, ölən şəxs şərqdən qərbə doğru dəfn edilməlidir. Tapılmış qəbir isə şimaldan cənub istiqamətində yerləşir. Ona görə də çox güman, burada dəfn olunmuş şəxs xristian olmayıb. Onun ya IV əsrə kimi dəfn edilmiş bir romalıya, ya da V-VII əsrlərdə dəfn edilmiş erkən saksa aid olduğu ehtimal edilir. Skeletin yenidən dəfn ediləcəyi və sonrakı araşdırmalar üçün çıxarılmayacağına qərar verilib.

# Nobel Sülh mükafatına madaqaskarlı katolik missionerin namizədliyi irəlib sürülüb



"Catholicnewsagency" xəbər verir ki, bu il Nobel Sülh mükafatına Madaqaskardan olan 72 yaşlı katolik missionerin namizədliyi irəli sürülüb. Kasıblara və evsizlərə xidmət göstərməyi, paytaxtın böyük zibilliyində yaşayıb, oradan qidalanması ilə məşhurlaşan Pedro Opeka "Vinsent (lazar)" ordeninin Argentina əyalətinə mənsubdur.

Pedro Pablo Opeka 1948-ci ildə Buenos-Ayresdə Sloveniyadan olan qaçqınlar ailəsində dünyaya gəlmişdir. 18 yaşında Müqəddəs Vinsent de Paul konqreqasiyasının San-Migeldəki seminariyasına daxil olmuşdur. Opeka Ata artıq 30 ildən çoxdur ki, Madaqaskarda kasıblara xidmət göstərir. 1989-cu ildə o, zibillikdə yaşayan "yoxsulların ən yoxsullarına kömək etmək üçün həmrəylik hərəkatı" olan "Akamasoa" humanitar təşkilatını yaratmışdır. "Akamasoa" ("yaxşı dost" deməkdir) onun rəhbərliyi altında bu illər ərzində evsizlərə və onların ailələrinə 4 mindən çox kərpic ev bağışlamış, 13 min uşaq və gəncin təhsil almasına vasitəçi olmuşdur.

Sloveniyanın Baş naziri Yanez Yanşa "ağır şərtlərdə yaşayan insanlara kömək etmək sədaqətinə" görə Opeka Atanın namizədliyini 2021-ci il Nobel Sülh Mükafatına təqdim etdiyini açıqlamışdır. Qalibin adının payızda açıqlanacağı gözlənilir.

Qeyd edək ki, "Lazar" ordeni XVII əsrdə müqəddəs Vinsent de Paul tərəfindən təsis edilmiş azsaylı kişi konqreqasiyasıdır. 2014-cü ildə buraya cəmi 3 min keşiş daxil idi və ona iqamətgahı Romada yerləşən baş keşiş rəhbərlik edirdi. Bununla belə, ordenin 86 ölkədə 510 monastırı var.

# Tarixdə ilk dəfə Yepiskoplar Sinoduna qadın təyin olunub

Roma Papası I Fransisk Katolik Kilsəsinin Yepiskoplar Sinoduna ilk dəfə qadın təyin edib. "Vatican News"-un verdiyi xəbərə görə, 52 yaşlı fransız rahibə Natali Bekvart Sinodun baş katibinin müavini təyin olunub.

Sinodun Baş katibi, kardinal Mario Qrek öz müsahibəsində bildirib ki, Bekvart assambleyalarda səs vermək hüququna sahib olacaqdır. Onun sözlərinə görə, bu təyinat qadınların səsvermə hüququ ilə Yepiskoplar Sinodunda iştirakına "qapı açıb".

Bundan başqa, Yepiskoplar Sinodunun mövcudluğu tarixində ilk dəfə iki nəfər birdən köməkçi katib təyin olunu. Belə ki, Bekvartdan başqa, bu vəzifə həm də 60 yaşlı ispaniyalı avqustin-keşiş Luis Marin de San Martinə həvalə olunub. Qrekin fikrincə, bu da Baş katibliyin strukturuna yenilik gətirəcəkdir.

# İslam tarixindəki ən qədim məscidlərdən birinin xarabalıqları aşkarlanıb



İsrail arxeoloqları Təbəriyyə gölünün (İncil mətnlərində daha çox Cəlilə dənizi kimi keçir) cənubundakı Tiberiya şəhərində İslamın doğuşunun ilk onilliklərinə aid qədim bir məscidin təməlini kəşf etdiklərini açıqlayıblar. Bu barədə "The Guardian" xəbər verib.

Yerusəlimdəki Yəhudi Universitetinin alimləri onu eramızın təqribən 670-ci ilinə - yəni Məhəmməd peyğəmbərin ölümündən bir sonrakı nəslə aid edirlər və bu fakt onu müasir arxeologiya tərəfindən bilinən ən qədim müsəlman məbədlərindən birinə çevirir.

"Bizə məlumdur ki, bölgənin tarixində erkən İslam dövrünə aid bir neçə başqa məscid də olmuşdur", - deyə Yəhudi Universitetinin İslam arxeologiyası üzrə mütəxəssisi və qazıntı işinin rəhbəri Katia Sitrin-Silverman bildirib. "Mədinədəki Peyğəmbər məscidi, Şamdakı Böyük Məscid və Qüdsdəki Məscidi-Əqsa da təxminən eyni dövrdə inşa edilmişdir".

Bu məscidin inşası zamanı Tiberiya artıq bir neçə on il idi ki, müsəlman şəhəri idi. Bu şəhər təxminən miladdan sonra 20-ci ildə yaranmış və ikinci Roma imperatorunun şərəfinə adlandırılmışdır. Həmin vaxtdan təxminən beş əsr ərzində yəhudilərin böyük yaşayış və elm mərkəzi olmuşdur. 635-ci ildə müsəlman ordusu tərəfindən fəth edilənə qədər bu Bizans şəhərində Cəlilə dənizinin sahilinə səpələnmiş xristian ziyarətgahları və məbədləri fəaliyyət göstərirmişdir. Müsəlmanların hakimiyyəti altında Tiberiya erkən İslam imperiyasının əyalət paytaxtı statusunu almış, çiçəklənmiş və populyarlıq qazanmışdır. İlk xəlifələr öz saraylarını şəhərin ətrafında göl kənarında tikdirmişlər.

Ancaq yaxın vaxtlara qədər şəhərin qədim müsəlman keçmişi haqqında məlumatlar çox az idi. 1950-ci illərdə buradakı ilk qazıntı materialları alimlərə binanın əvvəlcə Bizans bazarı olduğunu və sonradan məscid halına gətirildiyini düşünməyə əsas verdi. Sitrin-Silvermanın sözlərinə görə, fəth edilmiş şəhərdə meydana gələn ilk məscid yerli sinaqoqlarla və şəhər binaları üzərində hökm sürən Bizans kilsəsi ilə barışıq içində yaşamışdır. "Bu da azsaylı qeyri-müsəlman əhaliyə hökmranlıq edən ilk müsəlman hökmdarların yüksək tolerantlıq göstərdiklərinin və yerli əhalinin bu şəhərin həqiqi "qızıl çağında" harmoniya və barışıq içində yaşadıqlarının bariz sübutudur".

# NASA "PERSEVERANCE" KOSMİK APARATININ MARSDAN GÖNDƏRDİYİ FOTOLARI YAYIB



ABŞ-ın Aeronavtika və Kosmik Fəzanın Tədqiqatı üzrə Milli İdarəsi (NASA) Marsa enən "Perseverance" tədqiqat aparatının çəkdiyi rəngli fotoşəkilləri "Twitter" sosial şəbəkəsində dərc edib.

Kadrların birində Qırmızı planetin səthi, digərində onun üfüq xəttinin peyzajı, üçüncü kadrda isə enişdən öncə aparatın özü görünür.

Qeyd edək ki, bir ton ağırlığı olan "Perseverance" tədqiqat aparatı fevralın 18-də yeddi aylıq uçuşdan sonra "Jezero" krateri rayonunda Marsa eniş edib. "Mars 2020" missiyası ötən ilin iyul ayında start götürüb. NASA-nın tarixində beşinci Mars aparatı olan "Perseverance" Qırmızı planetin quruluşu və geologiyasının tədqiqi üçün nəzərdə tutulan yeddi elmi alətlə, həmçinin 25 kamera və iki mikrofonla təchiz olunub.

Aparatın əsas məqsədi Mars səthindən gələcəkdə Yerə çatdırılması nəzərdə tutulan süxur nümunələri toplamaqdır. Onun göyərtəsində Qırmızı planetin atmosferindən oksigen almaq üçün eksperimental qurğu, həmçinin başqa planetdə ilk uçuşu həyata keçirəcək "kosmik helikopter" də var. NASA-nın hədəfi 2030-cu illərədək Mars planetinə insan göndərmək imkanlarına malik olmaqdır.

# Gənc qadın Britaniya Müsəlman Şurasının Baş katibi seçilib



Gənc qadın tanınmış bir şəriət müəllimi ilə rəqabətdə 60 səsə qarşı 107 səslə qabağa çıxaraq ilk dəfə İngiltərə Müsəlmanları Şurasının (İMŞ) rəhbəri seçilib. Bu hadisə yerli müsəlman icması və bütövlükdə ölkə üçün dönüş nöqtəsi adlandırılır. Bu barədə "The Guardian" xəbər verib.

Qlazqoda tədris və inkişaf məsləhətçisi kimi işləyən 29 yaşlı Zara Məhəmməd İMŞ-nin virtual illik ümumi yığıncağında Şuranın Baş katibi vəzifəsinə seçilib. Onun əsas rəqibi tanınmış imam və ilahiyyatçı Əcmal Məsrur olub.

"Məqsədim ümumi rifah və inkişaf naminə ingiltərəli müsəlmanların bütün ehtiyaclarını qarşılayan, dini icmamızın, həqiqətən, inklüziv, hərtərəfli və mötəbər orqanını yaratmağa davam etməkdir", – deyə Zara Məhəmməd bildirib. "Bu vəzifəyə ilk qadın Baş katib seçilməyim mənim üçün böyük şərəfdir və ümid edirəm ki, nümunəm qadınlarımıza və gənclərimizə rəhbər vəzifələrdə işləməyə ilham verəcəkdir. Təşkilatımızın və bütövlükdə cəmiyyətimizin gələcəyi bundadır", - deyə o əlavə edib.

# Fransa Milli Məclisi ekstremizmə qarşı qanun layihəsini qəbul edib



Fransa Milli Məclisi xüsusilə müsəlmanlar arasında ekstremizmə və separatizmə qarşı qanun layihəsini qəbul edib. Qanun layihəsi hər hansı dini fəaliyyətə nəzarəti sərtləşdirir, bəzi dini simvolları qadağan edir və evdə təhsil almağı məhdudlaşdırır. Bu barədə "catholicnewsagency" xəbər verib.

"Respublika prinsiplərinə hörməti dəstəkləmək məqsədilə" hazırlanan qanun layihəsi başda dünyəvilik (kilsənin dövlətdən ayrılması) və gender bərabərliyi prinsipi olmaqla, "fransız dəyərlərini" qorumağa yönəlib. Milli Məclis 347 səslə - lehinə 151, bitərəf 65 - qanun layihəsini təsdiqləyib. Ekspertlər onun çox güman ki, Senat tərəfindən təsdiqlənəcəyini ehtimal edirlər.

Prezident Makron fransız qanunlarını və dəyərlərini rədd edən, get-gedə ortaya çıxan "əks cəmiyyət"lə mübarizə üçün belə bir qanunun zəruri olduğunu söyləyib. "İnancından asılı olmayaraq, hər bir vətəndaşdan respublika qanunlarına riayət etməsini tələb edirəm, çünki o, ilk növbədə vətəndaşdır, yalnız bundan sonra dindar və ya dinsizdir".

Qanun layihəsini tənqid edənlər onun müsəlmanlara qarşı yönəldiyini və dini etiqad azadlığını, ümumiyyətlə dini icmaların azadlığını pozduğunu düşünürlər.

# Səudiyyə Ərəbistanında ilk: qadınlar orduda xidmət edəcək



Səudiyyə Ərəbistanının Müdafiə Nazirliyi öz rəsmi portalında ilk dəfə orduda muzdlu əsaslarla xidmət etmək istəyən qadınlardan müraciətləri qəbul edəcək. Bu barədə "Alarabia" telekanalı məlumat yayıb.

Zərif cinsin nümayəndələri quru, dəniz, hava, strateji raket qoşunlarında və tibb bölmələrində xidmətə götürüləcək. Nazirlik bildirib ki, hərbi xidmətə qəbul edilən qadınlara sıravi əsgər və serjant rütbələri veriləcək. Bu yenilik Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salmanın 2030-cu ilədək islahatlar proqramı çərçivəsində həyata keçirilir.

Hərbi xidmətə 21-40 yaşlarında və ən azı 155 santimetr boyunda, ali təhsilli, kriminal keçmişi olmayan və sağlam səudiyyəli qadınlar qəbul ediləcək. Həmçinin onlar əcnəbi vətəndaşlarla evli ola bilməzlər.

CəMİYYəT və DİN
№ 02 (352) FEVRAL 2021-ci il

# Səyyad Aranın Qarabağ barədə romanı Türkiyədə çapdan çıxıb




Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə 2016-cı ildən həyata keçirilən "Azərbaycan kitabının dünyaya tanıdılması" layihəsi üzrə seçmə ədəbi nümunələrimizin tərcüməsi, çapı və Türkiyədə yayılması işi davam etdirilir.

Layihə üzrə tanınmış yazıçı-publisist Səyyad Aranın "Mezar taşı" romanı Türkiyə türkcəsində işıq üzü görüb.

Ötən əsrin sonlarında işğalçı Ermənistanın Azərbaycanın Qarabağ bölgəsində törətdiyi qətliamlardan bəhs edən yazıçı zülmə məruz qalmış bir ailənin həyatını romana çevirib.

Tanınmış şair-tərcüməçi Yurtsevən Şənin türkcəyə uyğunlaşdırdığı əsər "Zengin Yayıncılık" nəşriyyatı tərəfindən 5000 tirajla çap olunub.

Qeyd edək ki, şanlı Ordumuzun Qarabağın işğaldan azad edilməsi uğrunda apardığı mübarizəyə dəstək məqsədilə İstanbuldakı Azərbaycan Kültür Dərnəyi "Zengin Yayıncılık" nəşriyyatı ilə birgə tədbir keçirilib, tədbir zamanı qurulan stenddə Səyyad Aranın "Mezar taşı" kitabı və Qarabağ həqiqətləri ilə bağlı bukletlər də ziyarətçilərə paylanılıb.

# Süni intellekt qərar qəbuluna təsir göstərə bilər

Avstraliya Dövlət Elmi və Tətbiqi Tədqiqatlar Birliyinin (CSIRO) “Data61” şirkətinin tədqiqatçıları Avstraliya Milli Universiteti və Almaniya ekspertləri ilə əməkdaşlıqda süni intellektin insan tərəfindən qərarın qəbul edilməsinə təsir göstərə bilməsini müəyyən ediblər.

Tədqiqata iştirakçıların kompütera qarşı oyun oynadığı 3 eksperiment daxil olub. İlk iki testdə iştirakçılar saxta valyuta qazanmaq üçün qırmızı və ya göy xanaların üzərinə keçid edərək sıxıblar. Üçüncü eksperimentdə iştirakçılara saxta valyutanın investisiya qoyuluşu üzrə 2 variant təklif olunub. Ssenaridə iştirakçılar sərmayədar, süni intellekt isə etibarlı idarəedici rolunu oynayıb. Hər üç oyunu keçdikcə süni intellekt iştirakçıların son nəticədə oyunçuların müəyyən qərar qəbul etməsinə kömək edən seçim modelini öyrənib. Məsələn, artıq üçüncü oyunda süni intellekt iştirakçıları ona daha çox pul verməyə məcbur etməyi mənimsəyib.

Tədqiqatın nəticələrinə görə, süni intellekt insanların vərdişlərindən və davranış modellərindən istifadə edərək onların qərar qəbul etməsinə təsir göstərə bilər.

“Tədqiqat nəzəri olsa da, o, bizə insanların necə seçim etməsini daha yaxşı başa düşməyə imkan verib”, – deyə ekspertlər qeyd ediblər.

# Evsizlər üçün yataq kapsulları





Almaniyanın “Wilhelmsbüro” studiyasının hazırladığı mobil yataq kapsulları qışda evsiz insanların küçədə soyuqdan donmaması üçün nəzərdə tutulub.

Sosial proqram çərçivəsində hazırlanan sözügedən konstruksiyanın zəruri olduğu halda seriya şəklində istehsalı planlaşdırılır.

Kapsulanın konstruksiyası yanğınsöndürmə xidməti, polis, sosial mərkəzlər, tibb müəssisələri və digər müvafiq qurumlarla razılaşdırılıb.

## Bakı və Abşeron üzrə namaz vaxtları ( Mart - 2021)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:55 | 07: 15 | 12:53 | 16:48 | 18:46 | 19:46 |
| 2 | 05:54 | 07:14 | 12:53 | 16:49 | 18:47 | 19:47 |
| 3 | 05:52 | 07:12 | 12:53 | 16:50 | 18:48 | 19:48 |
| 4 | 05:51 | 07:11 | 12:53 | 16:51 | 18:49 | 19:49 |
| 5 | 05:49 | 07:09 | 12:52 | 16:52 | 18:50 | 19:50 |
| 6 | 05:48 | 07:07 | 12:52 | 16:53 | 18:51 | 19:52 |
| 7 | 05:46 | 07:06 | 12:52 | 16:54 | 18:52 | 19:53 |
| 8 | 05:45 | 07:04 | 12:52 | 16:54 | 18:53 | 19:54 |
| 9 | 05:43 | 07:03 | 12:51 | 16:55 | 18:54 | 19:55 |
| 10 | 05:41 | 07:01 | 12:51 | 16:56 | 18:55 | 19:56 |
| 11 | 05:40 | 07:00 | 12:51 | 16:57 | 18:56 | 19:57 |
| 12 | 05:38 | 06:58 | 12:51 | 16:58 | 18:57 | 19:58 |
| 13 | 05:36 | 06:56 | 12:50 | 16:59 | 18:59 | 19:59 |
| 14 | 05:35 | 06:55 | 12:50 | 17:00 | 19:00 | 20:00 |
| 15 | 05:33 | 06:53 | 12:50 | 17:01 | 19:01 | 20:01 |
| 16 | 05:31 | 06:51 | 12:49 | 17:01 | 19:02 | 20:03 |
| 17 | 05:30 | 06:50 | 12:49 | 17:02 | 19:03 | 20:04 |
| 18 | 05:28 | 06:48 | 12:49 | 17:03 | 19:04 | 20:05 |
| 19 | 05:26 | 06:47 | 12:49 | 17:04 | 19:05 | 20:06 |
| 20 | 05:25 | 06:45 | 12:48 | 17:05 | 19:06 | 20:07 |
| 21 | 05:23 | 06:43 | 12:48 | 17:05 | 19:07 | 20:08 |
| 22 | 05:21 | 06:42 | 12:48 | 17:06 | 19:08 | 20:09 |
| 23 | 05:19 | 06:40 | 12:47 | 17:07 | 19:09 | 20:11 |
| 24 | 05:18 | 06:38 | 12:47 | 17:08 | 19:10 | 20:12 |
| 25 | 05:16 | 06:37 | 12:47 | 17:09 | 19:11 | 20:13 |
| 26 | 05:14 | 06:35 | 12:47 | 17:09 | 19:12 | 20:14 |
| 27 | 05:12 | 06:33 | 12:46 | 17:10 | 19:13 | 20:15 |
| 28 | 05:10 | 06:32 | 12:46 | 17:11 | 19:14 | 20:16 |
| 29 | 05:09 | 06:30 | 12:46 | 17:11 | 19:15 | 20:18 |
| 30 | 05:07 | 06:29 | 12:45 | 17:12 | 19:17 | 20:19 |
| 31 | 05:05 | 06:27 | 12:45 | 17:13 | 19:18 | 20:20 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# Qeyri-kommersiya dini qurumlarının dövlət reyestr (Dini qurumların dövlət reyestri) məlumatları

## Qeyri-kommersiya dini qurumlarının dövlət reyestində (Dini qurumların dövlət reyestri) edilmiş dəyişikliklər

### “Azərbaycan Yəhudiləri” dini icması

**Qeydiyyat tarixi:** 05 dekabr 2009-cu il
**Qeydiyyat №-si:** 100109A2-51

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Mirov David Benyaminoviç, Folko Zinaida Konstantinovna dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Segal Shneor Salman Moshe Yosef İtzhak oğlu, Əzizov Samir Oruc oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Mirov David Benyaminoviç dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Segal Shneor Salman Moshe Yosef İtzhak oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:** 02 fevral 2021-ci il

## Yadigar söz

*Viktor Hüqo*

*Öldükdən sonra yaşamaq istəyirsinizsə, ya oxumağa dəyər şeylər yazın, ya da yazılmağa dəyər bir həyat yaşayın.*

**Baş redaktor** Səyyad ARAN

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

**Ünvan:** AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
**Telefon:** 505 78 16; 505 78 19
**E-mail:** redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, “Universal Poliqraf” nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894